**EVDƏ QAL, SAĞLAM QAL!**

**İordaniya portalında akademik Zərifə Əliyeva haqqında məqalə dərc olunub**



Bax 3

**Prezident İlham Əliyev: "Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür"**



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 072 (6037) 30 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezidentə yazırlar: Xalqımızın sağlamlığını hər şeydən üstün tutmağınız bizi çox qürurlandırır



Bax 8

## "Bu gün Azərbaycan dünyanın ən güclü və ən nüfuzlu dövlətlərindəndir"

Bax 5



"Bu gün dünya siyasi-iqtisadi, sosial-mənəvi böhran məngənəsindədir. 2008-ci ildən başlayan maliyyə-iqtisadi böhran hələ də davam etməkdədir. Yaxın və Orta Şərqdə, Afrikada yaşanan vətəndaş müharibələri, qanlı qarşıdurmalar, qırğınlar, aclıq, ölüm, səfalət, insanlıq faciəsi və dramı günümüzün, dövrümüzün acı yaşantıları, reallıqlarıdır. Bunlar azmış kimi, son 3 ayda yaşanan, dünyanı lərzəyə salan, iqtisadiyyatları çökdürən, insanların həyatını məhv edən koronavirus ...

## Koronavirus insanları evə çağırır

Bax 7



*Donald Tramp miqrantların ABŞ-a iki ay müddətinə girməsini qadağan edib. Bu dövrü istənilən qədər uzatmaq olar və heç kim ABŞ prezidentinin bunu etməyəcəyinə zəmanət verə də bilməz. Düzdür, birləşmiş ştatlar prezidenti qadağaların pandemiyanın bitməsindən sonra götürüləcəyi barədə də bəyan edib...*

## Xidmət yoldaşını güllələyən erməni əsgər özünə qəsd edib

Bax 7



Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgərlər arasında nizamnamədən kənar münasibətlər zəminində baş verən daha bir cinayət faktı ortaya çıxıb.

## "Ermənilərdən üzr istəyirəm demək, mənim babam qatildir deməkdir"

Bax 11



"Avropalılar Osmanlı İmperiyasını məhv etmək üçün xristianların yaşadığı bir ərazidə qarışıqlıq çıxarır, kəsilən donuz başlarını məscidlərə atırdılar.Müsəlmanlar bunu xristianların etdiklərini düşünərək xristian məhəllələrinə basqın edir və beləliklə...

## Karantdən sonra ilk növbədə kimlər paytaxta qayıda biləcəklər?



Bax 5

**May ayının 4-dən etibarən şəhərlərarası nəqliyyat bərpa olunduğu halda, paytaxta gələn insanların daşınması mərhələli şəkildə aparılacaq. SİA-nın məlumatına görə, bunu açıqlamasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova bildirib.**

**"Koronavirus pandemiyası dövlətimizin qarşısında əlacsız qalıb"**



Bax 10

**Neftin dünya bazarındakı qiyməti bu iki amildən asılı olacaq**



Bax 12

**Özil "Arsenal"dan ayrılır?**



Bax 16

# PREZİDENTƏ YAZIRLAR: "Sizin dəstəyinizi və qayğınızı hər zaman hiss edirik"

***Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması istiqamətində atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA Prezidentin rəsmi saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Qərbi Qazaxıstan vilayəti yerli qanunverici orqanının deputatı Ənvər Ağayev yazır ki, hazırda dünyanın ən böyük problemi olan koronavirus pandemiyasının qarşısının alınması məqsədilə bütün dövlətlər çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması üçün addımlar atırlar:

"Biz - Qazaxıstanda yaşayan azərbaycanlılar yaşadığımız ölkə ilə yanaşı, doğma Vətənimizdə bu bəlanın yayılmasından narahatlıq keçirsək də, Azərbaycanda görülən tədbirləri, Sizin örnək fəaliyyətinizi, ölkəmizin hər bir vətəndaşına göstərdiyiniz diqqət və qayğını heyranlıqla izləyirik. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr xaricdə yaşayan azərbaycanlıların diqqət mərkəzindədir. Belə bir qənaətə gəlir və bir daha şahidi oluruq ki, Sizin siyasətinizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan xalqının rifahı Sizin üçün hər şeydən üstündür.

Sizin "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızın həmrəyliyinə, birliyinə yeni, parlaq çalarlar gətirdi. Qlobal bəla ilə mübarizədə Azərbaycan xalqı məsuliyyət, yüksək nizam-intizam və ən başlıcası, milli həmrəylik nümayiş etdirdi. Xaricdə yaşayan azərbaycanlılar olaraq həm qürbətdəki həmyerlilərimiz, həm də Vətənimiz üçün gördüyünüz işlərdən qürur duyuruq. Başqa bir ölkənin vətəndaşı olsaq da, Qazaxıstandakı azərbaycanlılar, qürbət ölkədə mövqe tutmuş, müəyyən söz sahibi olan oğul və qızlarımız üçün Sizin çağırışınız bir siqnaldır. Biz tarixi məsuliyyətimizlə bu çağırış qarşısında hər cür fədakarlığa hazır olduğumuzu bildirməkdən şərəf duyuruq.

Türkdilli xalqların liderlərinin videokonfransını keçirməklə Siz böyük türk oğlu kimi ümumbəşəri bəlaya qarşı birlikdə mücadilənin əhəmiyyətini bütün dünya siyasətçilərinə nümayiş etdirdiniz. Qlobal problemlərlə mübarizədə Azərbaycan yeni bir nümunə yaratdı və indi bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır.

Biz inanırıq ki, Sizin siyasətinizin ətrafında hər zaman sıx birləşən Azərbaycan xalqı bu çətin günlərdən də uğurla çıxacaq. Sizə və ailənizə bu çətin günlərdə əvəzsiz olan cansağlığı arzu edirik.

Siz mürəkkəb vəziyyətlərdə qalib gəlmək üçün var qüvvənizlə çalışır, mümkün olan hər şeyi edirsiniz. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, Allahın köməyi, Sizin möhkəm iradəniz, eyni zamanda, birlik və həmrəyliyimizin gücü sayəsində gözə görünən və görünməyən bütün düşmənlərimizə hər zaman qalib gələcəyimizə öz varlığımız qədər inanırıq".

Birinci Qarabağ müharibəsi veteranının oğlu, Hacıqabul rayonu sakini Azər Əhmədli isə bildirir ki, pandemiya qlobal bir problemdir, bütün dünya ölkələri bu problemi yaşayır, o cümlədən də bizim ölkəmiz bu bəla ilə qarşı-qarşıyadır:

"Ancaq Sizin ölkəmizin inkişafı naminə apardığınız misilsiz siyasətinizin nəticəsidir ki, qabaqlayıcı tədbirlər vaxtında görüldüyü üçün Azərbaycanda bu virusa yoluxanların sayı gündən-günə azalmaqdadır.

Mən Birinci Qarabağ müharibəsi veteranının oğlu olaraq hər bir vətəndaşın probleminə həssas yanaşdığınıza, göstərdiyiniz diqqət və qayğınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən də dövlətimizin qayğısı ilə əhatə olunan vətəndaşlar sırasındayam və işsiz olduğum üçün 190 manat məbləğində birdəfəlik ödəmə aldım. Buna görə Sizə minnətdaram. Allah Sizi qorusun".

Əməkdar müəllim, Sumqayıt şəhəri sakini Qətibə Əsədova isə vurğulayır ki, 70 yaşlı bir ana kimi Prezident İlham Əliyevə və ailəsinin hər bir üzvünə dərin sevgi və hörmətini bildirmək istəyir:

"Bu il əmək fəaliyyətimi dayandırmışam. Buna baxmayaraq, Sizin və Mehriban xanımın istər işləyən nəslə, istərsə də təqaüddə olan yaşlı nəslə diqqət və qayğınızı çox yüksək qiymətləndirirəm. Sizin yorulmaz fəaliyyətiniz nəticəsində Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən çox irəli gedərək, bu amansız pandemiyaya qarşı layiqli mübarizə apardı. Allaha şükürlər olsun ki, ölkəmiz Sizin sayənizdə bu bəladan az itkilərlə qurtulmaqdadır.

Cənab Prezident, onu da bildirmək istərdim ki, Sizin millət, Vətən sevginizin qarşılığı ümumxalq sevgisidir. Azərbaycanımız naminə gördüyünüz hər bir işə görə b Sizə çox minnətdarıq. Allah Sizi qorusun".

Mingəçevir şəhəri, tarix müəllimi Mənsur Həsənovun minnətdarlıq müraciətində isə deyilir ki, dünyamız çətin sınaq qarşısında ikən xalqımızı bu bəladan hifz etmək üçün Azərbaycan Prezidentinin gördüyü tədbirlər və ard-arda verdiyi mühüm fərman və sərəncamlarına görə bir vətəndaş olaraq ölkə başçısına dərin təşəkkürünü bildirir:

"Cənab Prezident, xalqımız dünyanı bürüyən ağır pandemiya dövründə "Biz birlikdə güclüyük!" çağırışınız ətrafında sıx birləşdi. Bu gün əminliklə deyə bilərəm ki, görülən təxirəsalınmaz tədbirləriniz sayəsində pandemiyaya qarşı mübarizə öz səmərəsini göstərməkdədir. Təbii ki, bu, hər bir Azərbaycan vətəndaşını sevindirir. Bu ağır dövrdə vətəndaşlarımızın rifahı üçün gördüyünüz tədbirlər bir daha sayənizdə dövlətimizin nə qədər qüdrətli bir ölkə olduğunu hər bir kəsə və təbii ki, bütün dünyaya göstərdi.

Bir müəllim kimi çalışdığım Mingəçevir şəhər 20 saylı tam orta məktəbin kollektivi adından Sizə və köməyini xalqımızdan heç zaman əsirgəməyən Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildirirəm. Var olun. Əmin olun ki, bu xalq hər zaman Sizinlə birlikdə güclü olacaqdır. Allah Sizi qorusun".

Goranboy rayonu sakini, dəniz neftçisi Alik Quliyev isə bildirir ki, son dövrlərdə Azərbaycanda sürətli inkişafın, neft və qeyri-neft sektorlarında ciddi irəliləyişin olduğu hamıya bəllidir:

"Bu inkişaf Sizin apardığınız siyasətin nəticəsidir. Biz goranboylular Sizin dəstəyinizi və qayğınızı hər zaman hiss edirik. Ölkəmizdə bütün sahələrdə, xüsusən də siyasi, iqtisadi, məhkəmə, hüquq, təhsil və səhiyyə sahələrində aparılan islahatlar bunun bariz nümunəsidir. Siz dediyiniz kimi, Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdı. Bu gün güclü dövlət olmağımızın əsl səbəbi Sizsiniz, cənab Prezident!

Goranboyda və ətraf rayonlarda da inkişafın şahidi oluruq. Hər bir Azərbaycan vətəndaşı kimi, mən də öz növbəmdə çətin neftçi peşəsini layiqincə yerinə yetirməyə çalışıram.

Hazırda COVID-19 pandemiyası ilə üz-üzəyik. Amma Sizin verdiyiniz qərarlar, atdığınız addımlar sübut edir ki, hər bir azərbaycanlı üçün ən doğru addım evdə qalmaq, öz sağlamlığını qorumaqdır".

Qax rayonu sakini Əli Seyidəliyev isə qeyd edir ki, dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər təqdirəlayiqdir:

"Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi bu məsələyə necə ciddi yanaşıldığını göstərir. Bu müddət ərzində sosial işçi layihəsinin tətbiq edilməsi və mənim kimi minlərlə vətəndaşın işlə təmin olunması bizə göstərdiyiniz qayğının və diqqətin təcəssümüdür.

Əziz Prezidentimiz, böyük bir bəla olan koronavirusun ölkəmizdə kütləvi yayılmasının qarşısını almaq məqsədilə görülən işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir. Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!".

Oğuz rayonu sakini Nəriman Ramazanovun təşəkkür məktubunda isə deyilir:

"Hörmətli cənab Prezident, Ali Baş Komandan.

Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımı alqışlayırıq. Siz bizi bizdən də çox düşünürsünüz. Bunun sayəsində biz bu gün rahat yaşayır, koronavirusun dünyada yaratdığı dəhşətləri kənardan izləyirik.

Bu qayğınıza görə Sizə ailəmiz adından təşəkkür edirəm. Bu çətin günlərdə xalqımıza arxa-dayaq oldunuz, təhlükəsizliyimiz üçün əlinizdən gələni əsirgəmədiniz. Biz Sizinlə fəxr edirik. Siz dövlətimizin başında olduğunuz müddətdə Azərbaycan var olacaqdır. Ulu Tanrı Sizi və ailənizi qorusun".

Biləsuvar rayonu sakini Sevinc Qədirova isə qeyd edir:

"Möhtərəm Prezident. Bütün dünyanı cənginə alan koronavirus pandemiyasının törətdiyi fəsadların qarşısının alınması üçün həyata keçirdiyiniz işləri hər birimiz görürük və buna görə Sizə təşəkkür edirik.

Sizin təşəbbüsünüzlə aztəminatlı ailələrlə bağlı proqramların icrasına başlanıldı. Dünya ölkələri arasında müqayisədə ölkəmizdə vəziyyət elə də acınacaqlı deyil. Bu da Sizin qabaqlayıcı tədbirləriniz nəticəsində mümkün oldu. Biz inanırıq ki, gözəl və firavan həyatımız tezliklə yenidən öz axarı ilə davam edəcək. Biz Sizinlə - cənab Prezidentimizlə fəxr edirik".

Salyan rayonu sakini Şəbnəm Kərimli isə bildirir ki, Prezident İlham Əliyevin müdrikliyi və uzaqgörən siyasəti Azərbaycanımızı pandemiyadan da ən yüksək səviyyədə qorudu:

"COVID-19 infeksiyasının ölkəmizdə yayılmaması üçün gördüyünüz təxirəsalınmaz tədbirlərə, bu virusun gələcəyimizi əlimizdən almasına mane olduğunuza və ən əsası, xalqın təkcə Prezidenti deyil, həm də qəhrəmanı olduğunuza görə bir gənc kimi Sizə minnətdarlığım sonsuzdur. Uca Tanrı Sizi və ailənizi qorusun".

Füzuli rayonu sakini Süleyman İsmayılov isə bildirir ki, bütün bəşəriyyət üçün təhlükə yaradan koronavirus xəstəliyinin Azərbaycanda geniş yayılmasının qarşısının alınması üçün dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən mübarizə tədbirləri onda böyük qürur hissi yaradıb:

"Dünyanın ən inkişaf etmiş ölkələrinin, müasir səhiyyə sistemlərinin belə qarşısında aciz qaldığı bu xəstəlik Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hələ pandemiya elan edilməmişdən əvvəl Sizin uzaqgörənliklə başlatdığınız və birbaşa rəhbərliyinizlə həyata keçirilən tədbirlər nəticəsində şükürlər olsun ki, ölkəmiz üçün faciəvi nəticələrə gətirib çıxarmadı.

Bütün bunlara görə xalqımız Sizə minnətdarlığını ifadə edir. Azərbaycanın bu sahədəki mübarizəsinin dünya ölkələri üçün örnək olmasını qürur hissi ilə qarşılayırıq. Məhz görülən tədbirlərin nəticəsidir ki, son günlər ölkəmizdə bu xəstəliklə bağlı müsbət dinamika müşahidə olunur, sağalaraq evlərinə qayıdan xəstələrin sayı hər gün artır. Bu çətin günlərdə bütün xalqımız Sizin "Biz birlikdə güclüyük!" çağırışınızı müsbət əhval-ruhiyyəsi və mənəvi gücü ilə yaşayır".

facebook

# Prezident İlham Əliyev: “Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür”




***Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq.***

Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz.

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 98-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2019-cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimində söyləyib.

AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin noyabr-dekabr aylarını əhatə edir.

Çoxcildliyin 98-ci kitabına Prezident İlham Əliyevin Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimindəki çıxışının mətni və bu ölkəyə işgüzar səfəri, habelə Azərbaycana gəlmiş İordaniya Haşimilər Krallığının Kralı II Abdullah bin Əl-Hüseyn, Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşləri, eləcə də bir sıra dövlətlərin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında materiallar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Kitabda oxucular dövlətimizin başçısının Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdə dərin məzmunlu çıxışının mətni, XXV beynəlxalq “BakuTel-2019” sərgisində təmsil olunan müxtəlif ölkələrin nümayəndələri ilə görüş və söhbətlərinə dair materiallarla da tanış ola bilərlər.

Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri zamanı “ASAN həyat” kompleksinin açılış mərasimində çıxışının mətni, zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş binada yaradılan şəraitlə tanışlığı, Nəsiminin 650 illik yubileyi münasibətilə ağacəkmə aksiyasında iştirakı, habelə Bakı Gəmiqayırma zavodunda inşa olunmuş ilk neft tankerinin istismara verilməsi və “Azərbaycan” adlı gəmibərənin suya salınması mərasimində iştirakı haqqında ətraflı məlumatlar da yeni nəşrdə yer alıb.

Azərbaycan Prezidentinin Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına məktubu və digər məktublar da 98-ci kitaba daxil edilib.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 98-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# İordaniya portalında akademik Zərifə Əliyeva haqqında məqalə dərc olunub



***İordaniyada geniş oxucu auditoriyasına malik www.nayrouz.com xəbər portalında ölkənin tanınmış yazıçı-publisisti, tarixçi Ömər əl-Armutinin “Mərhum həkim Zərifə Əliyeva Azərbaycanın müasir tarixinin tanınmış simalarından biridir” adlı məqaləsi dərc edilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın İordaniyadakı səfirliyindən məlumat verilib.***

Məqalənin müəllifi aprelin 28-də Zərifə Əliyevanın anadan olmasının 97-ci ildönümünün qeyd edildiyini diqqətə çatdırır, incə qəlbli ana və sadiq həyat yoldaşı olmuş akademikin tibb elminə mühüm töhfələr verdiyini vurğulayır. O, Azərbaycan xalqının akademik Zərifə Əliyevanın xatirəsinə ehtiramla yanaşdığını qeyd edir və onun həyat və fəaliyyətinə nəzər salır. Bildirir ki, 1923-cü il aprelin 28-də Naxçıvanın Şahtaxtı kəndində, Azərbaycanın tanınmış dövlət və ictimai xadimi Əziz Əliyevin ailəsində anadan olmuş Zərifə Əliyevanın yaşadığı dövr ərzində oftalmologiya elmi sahəsində apardığı möhtəşəm tədqiqatları hazırkı dövrdə bu elmlə bağlı aktual məsələləri ehtiva edir və Azərbaycan oftalmologiya tarixində əlamətdar yer tutur.

Zərifə Əliyevanın 1960-cı ildə oftalmologiya sahəsi üzrə tibb elmləri namizədi dərəcəsinə yiyələndiyi, 1968-ci ildən başlayaraq sözügedən sahə üzrə aktual problemlər üzərində tədqiqatlar apardığı və onun sayəsində dünyada ilk görmə orqanının peşə patologiyasının araşdırılması üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradıldığı oxucuların diqqətinə çatdırılır. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsinin verildiyi barədə məlumat verən müəllif onun Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafatı olan “Averbax” mükafatına layiq görüldüyünü qeyd edir.

Ömər əl-Armuti vətənpərvərliyi, insanlığı, qəlbinin təmizliyi və insanlara qarşı hədsiz məhəbbəti ilə seçilmiş Zərifə xanımın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sadiq ömür-gün yoldaşı olduğunu, onun Ümummilli Liderə bütün işlərində dayaq və dəstək olduğunu vurğulayır. “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ailədə tərbiyə alıb. Hazırda Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, parlaq gələcəyə can atan müasir dövlətə çevrilib. Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin və akademik Zərifə Əliyevanın təməlini qoyduqları işləri davam etdirirlər”, - deyə müəllif məqaləsini yekunlaşdırır.

# Azərbaycanın dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət uzadıldı

Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 31 may 2020-ci il tarixinədək uzadılır. Bu barədə SİA-ya Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Qeyd edilib ki, hazırda dünya dövlətləri tərəfindən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirləri davam edir. Həyata keçirilən tədbirlər çərçivəsində əksər dövlətlər öz sərhədlərində giriş-çıxışa müvəqqəti olaraq məhdudiyyətin tətbiqi barədə qərar verərək beynəlxalq uçuşları təxirə salıb.

COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilmiş və virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 31 may 2020-ci il tarixədək uzadılıb.



# Dünya Bankı Azərbaycandakı layihələrin icrasına gələn aydan başlayacaq



Dünya Bankının Azərbaycanda maliyyələşdirdiyi ədliyyə sistemində islahatların davam etdirilməsi və məşğulluğa dəstək layihələrinin icrasına gələn ay başlanması planlaşdırılır. SİA xəbər verir ki, Dünya Bankının Azərbaycandakı nümayəndəliyindən bildirilib ki, COVID-19 pandemiyası fonunda hazırda Dünya Bankının Azərbaycana missiyaları dayandırılıb və bu səbəbdən yeni layihələr haqqında danışıqlar aparılmayıb. Bankdan həmçinin bildirilib ki, pandemiyanın yaratdığı iqtisadi şokların yumşaldılması məqsədi ilə Azərbaycan Dünya Bankına yardım üçün müraciət etməyib. Qeyd edək ki, Dünya Bankı Azərbaycanda ədliyyə sistemində islahatların davam etdirilməsi layihəsinə Azərbaycana 50 mln. ABŞ dolları (təsdiq edilib), məşğulluğa dəstək layihəsinə isə 100 mln. dollar məbləğində kreditlər ayırıb.

# Ölkədə yol infrastrukturunun yenilənməsi istiqamətində işlər davam edir

## Prezident İlham Əliyev: "Əldə edilmiş uğurların dünyada bərabəri yoxdur"

***Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir.***







Eyni zamanda, son aylar bütün dünyanı ağuşuna alan koronavirusla mübarizədə əksər ölkələr gözlənilmədən bəşəriyyətin üzərinə yeriyən koronavirus adlı kabusun qarşısında aciz qaldığı halda, Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli və operativ olması, kreativ lider kimi ən mürəkkəb hadisələri yüksək peşəkarlıqla idarə etməsi, qarşısına çıxan maneələri sürətlə keçməsi, düzgün qərarlar verməsi və bütün ölkənin aqibəti ilə yanaşı, hər bir vətəndaşın da qayğılarını eyni həssaslıqla düşünməsi Onun nüfuzunu dünya miqyasında artırır. Dövlət başçısının mübarizliyi və müdrik lider keyfiyyətləri yüz minlərlə insanın rəğbətinə səbəb olur. Bir sözlə, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə konkret iş görməklə daima öndədir. Bəli, əsl iyasət konkret real iş görməkdən ibarətdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının son 16 il ərzində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

### İnkişaf və tərəqqi yollardan başlayır

Dövlət başçısının mütəmadi olaraq, nəinki avtomobil yollarının, həmçinin digər sahələrin də inkişaf etməsin vəsaiti ayırır. Qeyd etdiyimiz növbəti Sərəncam da bunun təsdiqidir.

Elə bu günlərdə Prezident İlham Əliyevin "Azərbaycan - Rusiya Federasiyası dövlət sərhədində "Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncamı yol-nəqliyyat infrastrukturunun müasir tələblərə cavab verən növbəti uğurlu addımıdır. Sərəncama əsasən, Azərbaycan-Rusiya Federasiyası dövlət sərhədində "Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun uzunluğu 23,5 kilometr olan hissəsinin 4 zolağa genişləndirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 30 milyon manat ayrılıb.

Budur, Prezident İlham Əliyevin ən böyük amalı. Və görülən işlərin reallıqları.

### Son 16 ildə ölkə ərazisində 16 min 700 km yol salınıb

Dünyanın 141 ölkəsi arasında belə yüksək nəticənin əldə olunması son illər Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla aparılan yol infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi işlərinin məntiqi nəticəsidir. Bir məqamı da vurğulamaq istərdim ki, 14-cü dəfə DAVOS İqtisadi forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi görüşlərdə müxtəlif sferalara, o cümlədən, tranzit potensialının reallaşdırılmasına, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrasına aid məsələləri müzakirəsi zamanı Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur, digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb. Prezident ölkəmizdə inkişafın yeni mərhələsində həyata keçirilən iqtisadi islahatlardan söz açıb. Onların əsas məzmunu, mahiyyəti və məqsədləri barədə geniş fikir mübadiləsi aparıb. Bu sırada informasiya-kommunikasiya texnologiyalarının tərəqqisinin prioritet sahələrdən biri olduğunu dövlət başçısı ayrıca vurğulayıb.

### "Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir"

Keçirilən görüşlərdə bu məqamı xüsusi olaraq vurğulamaq istərdik ki, şirkət rəhbərləri Azərbaycanda reallaşdırılan islahatların əsl mahiyyətini yaxşı anlayırlar. Əslində, bu məsələ "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada öz konkret ifadəsini tapıb. Belə ki, müasir infrastrukturun yaradılması ilə bağlı verilən sualı Prezident İlham Əliyev lakonik cavablandırıb: "Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük".

Bəli, bütün deyilənlə onu sübut edir ki, dövlət başçımız hər bir Azərbaycan vətəndaşına açıq, rahat və müasir yol şəbəkəsi təqdim edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə, dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir.

### "Biz bu uğurlara doğru birlikdə, vəhdət şəklində getmişik, bundan sonra da həmin yolumuzu davam etdirəcəyik"

Bəli, Azərbaycan inkişaf yolunu tutub və bu reallıq inkaredilməzdir ki, dövlətimizin düzgün təmələ əsaslanan siyasəti nəticəsində arxada qalan il əvvəlki ildən daha böyük uğurlarla zəngin olur. Ölkənin hərtərəfli inkişafında iqtisadi amilin rolunu önə çəksək, Azərbaycanın iqtisadi inkişaf srategiyasının bu gün digər ölkələrə nümunə göstərilməsi, ən əsası inkişafın Azərbaycan modelinin mövcudluğundan bəhs olunması uğurlarımızın təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyev də bu uğurlara əsaslanaraq bildirir: "Bu gün Azərbaycan öz qüvvəsi, maliyyə imkanları hesabına ən mürəkkəb layihələri icra edə və onu məntiqi sonluğa çatdıra bilər. Biz bu uğurlara doğru birlikdə, vəhdət şəklində getmişik, bundan sonra da həmin yolumuzu davam etdirəcəyik".

Göründüyü kimi, bütün bunlar bir daha onu təsdiqləyir ki, xalqımız möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bundan sonra daha böyük nailiyyətlərə imza atacaq, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq.

**RƏFİQƏ KAMALQIZI**

# "Bu gün Azərbaycan dünyanın ən güclü və ən nüfuzlu dövlətlərindəndir"

***"Bu gün dünya siyasi-iqtisadi, sosial-mənəvi böhran məngənəsindədir. 2008-ci ildən başlayan maliyyə-iqtisadi böhran hələ də davam etməkdədir. Yaxın və Orta Şərqdə, Afrikada yaşanan vətəndaş müharibələri, qanlı qarşıdurmalar, qırğınlar, aclıq, ölüm, səfalət, insanlıq faciəsi və dramı günümüzün, dövrümüzün acı yaşantıları, reallıqlarıdır. Bunlar azmış kimi, son 3 ayda yaşanan, dünyanı lərzəyə salan, iqtisadiyyatları çökdürən, insanların həyatını məhv edən koronavirus pandemiyası da bir tərəfdən.***

Təəssüflər olsun ki, bu bəla ölkəmizdən də yan keçməyib. Bizdə də infeksiyaya yoluxanlar, dünyasını dəyişənlər var. Amma bütün dünya bu böhranla, bu bəla ilə üz-üzə və aciz durumda qalarkən, Azərbaycan Prezidenti cənab İlham Əliyevin son dərəcə müdrik, düşünülmüş, uzaqgörən siyasəti nəticəsində ölkəmiz koronavirus pandemiyası ilə mübarizədə də uğurlara imza atmaqda, tarix yazmağa davam etməkdədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin İntizam Komissiyasının sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

YAP İdarə Heyətinin üzvü bildirib ki, pandemiya şəraitində də ölkəmizdə sosial, siyasi sahədə, hüquq sistemində islahatlar davam etdirilməkdədir. Onun sözlərinə görə, ölkəmizdə yeni növ koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində atılan ardıcıl addımlar öz uğurlu, müsbət nəticələrini verdiyi kimi, adlarıçəkilən sahələrdə davam etdirilən islahatlar prosesi də gözləntiləri doğrultmaqdadır: "Buna elə son misal olaraq, Ali Məhkəmənin Plenumunda Real Partiyasının sədri İlqar Məmmədov və partiyanın idarə heyətinin üzvü Rəsul Cəfərov barəsində cinayət işinə bəraətverici əsaslarla xitam verilməsi, onlara təzminat ödənilməsi ilə bağlı qərarların çıxarılmasını qeyd etmək olar. Bunlar məhz ölkə Prezidentinin rəhbərliyi ilə istər siyasi sahədə, istərsə də məhkəmə-hüquq sistemində aparılan islahatlar prosesinin məntiqi nəticəsidir. Bildiyiniz kimi, hələ ötən ilin martında- Azərbaycan xalqına Novruz təbrikində ölkə Prezidenti digər sahələrdə olduğu kimi, siyasi sahədə, məhkəmə-hüquq sistemində islahatların aparılacağı anonsunu vermişdi. 2003-cü ilin oktyabrından verilən vədlər bir-bir yerinə yetirildiyi kimi, çox keçmədən həm siyasi sahədə, həm də məhkəmə-hüquq sistemində islahatların yeni və geridönməz mərhələsinə start verildi. Milli Məclis rəhbərliyinə, konkret olaraq Sədr müavini vəzifəsinə ilk dəfə olaraq müxalifət partiyası üzvünün seçilməsi, komitə və komissiya sədrləri və müavinləri arasında parlamentdə yer almış bütün partiyaların nümayəndələrinin təmsilçiliyi, Prezident Administrasiyasının müvafiq şöbəsinin rəhbərinin partiya liderləri ilə görüşlər keçirməsi, yeni yaradılmış daha iki partiyanın bugünlərdə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınması və nəhayət, Ali Məhkəmənin yuxarıda qeyd etdiyimiz son qərarı ölkə Prezidentinin formalaşdırdığı siyasətin, Onun şəxsi iradəsinin və qətiyyətinin göstəricisidir. Bunlar həm də xaricdənkimsənin müdaxiləsi və diktəsi olmadan həyata keçirilir, seçim özümüzün, iqtidarındır, Azərbaycan dövlətinə və onun rəhbərinə məxsusdur. Suveren Azərbaycan Respublikası 1993-cü ilin yayından bu yana müstəqil, heç kimdən asılı olmayan siyasət xətti yürütməkdədir və bu yolda da heç bir əngəl, manеə tanımayıb, tanımır, bundan sonra da tanımayacaqdır".

E.İbrahimov bununla yanaşı, hələ də aramızda tarixdən, yaşananlardan ibrət dərsi götürməyənlərin olduğunu da təəssüflə qeyd edib. Milli Məclisin İntizam Komissiyasının sədrinin sözlərinə görə, onlar ölkədə baş verən bu qədər müsbət işləri, əldə edilən uğurları, nailiyyətləri gözügötürməyən, qısqanclıqla yanaşan qruplar, "sapı özümüzdən olan baltalar"dır. Bunlar o qruplardır ki, 1992-1993-cü illərdə Azərbaycanı fəlakət, məhv olmaq, dağılmaq, parçalanmaq, müstəqilliyini itirmək həddinə çatdırmışdılar. YAP İdarə Heyətinin üzvü deyib ki, onların səriştəsizlikləri, bacarıqsızlıqları və qətiyyətsizlikləri ucbatından ölkəni xaos, anarxiya bürümüşdü: "Azərbaycan xalqının təkidli tələbindən sonra yenidən siyasi hakimiyyətə qayıdan Ulu



Öndər Heydər Əliyevin dühası sayəsində həm Azərbaycan fəlakətlərdən qurtulmuş, həm də bu qrupun üzvləri qiyamçı polkovnikin dar ağacından xilas edilmişlər. 1993-cü ilin iyun hadisələrindən sonra qaçıb orada-burada gizlənənlər yenə də Heydər Əliyevin humanistliyi, insanpərvərliyi sayəsində siyasətə dönmüş, öz fəaliyyətlərini davam etdirmələri üçün onlara növbəti şans-meydan verilmişdi. Amma onlar bu yaxşılıqların müqabilində yenə də əvvəlki xislətlərindən əl çəkməyərək, açıq və gizli şəkildə Azərbaycan dövləti və dövlətçiliyinə qarşı xəyanət yolu tutub, iqtidara qarşı bütün çirkin addımlara baş vurublar və təəssüflər olsun ki, bu gün də öz məkrli əməllərindən əl çəkmirlər. Onların gözlərini hakimiyyət, pul, kreslo hərisliyi o qədər örtüb ki, müqəddəs heç nə tanımırlar, bütün siyasi və əxlaqi dəyərləri ayaqlar altına atıblar. Azərbaycana qarşı ən amansız mövqedə dayanmış erməniрərəst, anti-Azərbaycan dairələrlə, mərkəzlərlə sinxron fəaliyyət göstərməkdədirlər. İşlərigücləri ancaq və ancaq həmin dairələrə, Avropa Şurasının Parlament Assambleyasına, Azərbaycanın inkişafını istəməyən bəzi beynəlxalq təşkilatlara şər-böhtan dolu donoslar yazmaqdan ibarətdir. Bu qrupun başında da Əli Kərimli, onun rəhbərlik etdiyi AXCP və millilikdən çox-çox uzaqda olan "Milli şura" adlanan dərnək dayanır. 2013-cü ildə Azərbaycanda hakimiyyət çevrilişi etmək üçün xarici, anti-Azərbaycan, erməniрərəst qüvvələrin təsiri ilə yaradılmış "Milli şura"nın məqsədi Azərbaycanı onu sevməyən dairələrin təsiri altına salmaqdan ibarət idi. Əli Kərimli xaricdən, çirkli mənbələrdən aldığı təlimatlar və maddi yardımlar əsasında bu qondarma qurumu yaşatmağa, onu Azərbaycanı istəməyən qüvvələrin əlində dövlətə, iqtidara qarşı təzyiq vasitəsinə çevirməyə cəhd etməkdədir və bu gün də məkrli planlarından əl çəkmir. Ancaq o və onun kimilər bir məqamı unudurlar ki, indiki Azərbaycan 1991-1993-cü illərin zəif, gücsüz, kənardan idarə olunan, məhz onların bərbad günə saldığı Azərbaycan deyil".

Millət vəkili söyləyib ki, bu gün Azərbaycan dünyanın ən güclü, ən qüdrətli, ən nüfuzlu dövlətlərindəndir. "Bunu təkcə biz demirik, bütün dünya, beynəlxalq birlik deməkdə və etiraf etməkdədir. Azərbaycanı qüdrətli, güclü edən isə onun Lideridir-ölkə Prezidenti cənab İlham Əliyevdir! Odur ki, istər Əli Kərimli, istərsə də yan-yörəsində özü ağılda olan adamlar bilsinlər və unutmasınlar ki, Azərbaycan xalqı, Azərbaycan dövləti və dövlət başçısı onların xain əməllərinin gerçəkləşməsinə imkan verməyəcək. Bu günə kimi imkan verməyib, bu gün də imkan vermir, sabah da imkan verməyəcək. Hər dəfə olduğu kimi, yenə də məğlub, rəzil-rüsvay durumuna düşəcək, məkanları tarixin zibilliyi olacaqdır. Azərbaycan iqtidarının və müstəqil Azərbaycan dövlətinin ömrü isə Azərbaycan xalqının ömrü kimi uzun olacaq. Dağ dağa söykənib nəhəngləşdiyi kimi, Azərbaycan dövləti və Azərbaycan iqtidarı da Azərbaycan xalqına söykənib hələ çox xarüqələr yaradacaq, hələ çox tarixlər yazacaq, hələ çox zəfərlərə imza atacaqdır!",- deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb. yap.org.az

***Ceyhun Rasimoğlu***

# "Münbit şəraitin olması daha çox xarici investisiya cəlb edəcək"



"Azərbaycan Prezidentinin Avropa Yenidənqurma və İnkişaf bankının Prezidenti ilə görüşü hər şeydən öncə hazırki mərhələdə Azərbaycan iqtisadiyyatının post-pandemiya mərhələsində də perspektivli olmasından xəbər verir. Çünki bu görüşdə məhz post-pandemiya mərhələsində iqtisadiyyata qoyulan yatırımlar və bu istiqamətdə perspektivli sahələrin müəyyənləşdirilməsi məsələsi təsvir olunub. Şübhəsiz ki, bu cür mötəbər maliyyə qurumunun post-pandemiya mərhələsində Azərbaycana investisiya yatırmaq istəməsi Azərbaycan iqtisadiyyatının dayanıqlılığından və perspektivindən xəbər verir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı, politoloq Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, daim bir məsələ xüsusilə diqqəti çəkir: "Azərbaycan Prezidenti sosial təcrid siyasətini həyata keçirərək iqtisadi fəallığın məhdudlaşdırılmasını şərh edərkən bildirib ki, bizim üçün əsas məsələ vətəndaşlarımızın səhhətidir. Alınan bütün qərarlar həm də post-pandemiya erasında iqtisadi fəallığın artırılması və yeni iqtisadi perspektivlərin yaranmasına hesablanıb. Biz bu kontekstdə vergi ödəyicilərinin vergi yükünün azaldılmasını, 600 mindən çox insana birdəfəlik yardımın verilməsini, eyni zamanda bütövlükdə hazırki vəziyyətdə 1,5 milyard manatlıq vergi güzəştləri də daxil olmaqla böyük bir maliyyə paketinin Azərbaycanda həyata keçirilməsini qeyd edə bilərik. Əlbəttə ki, bütün bunlar əhalinin sosial-müdafiəyə ehtiyacı olan təbəqəsinin sosial problemlərinin həlli üçün lazımlı addımlar idi, eyni zamanda kiçik və orta sahibkarlığa, mikroiqtisadiyyata yeni inkişaf mühiti yaratmaq üçün onların iqtisadi fəallığının və davamlılığının artırılmasına hesablanmış addımlar idi".

H.Babaoğlu bildirib ki, bütün bunlar post-pandemiya erasında Azərbaycan iqtisadiyyatının yeni perspektivlərini yaratdı və müzakirə olunan məsələlərdə də bir daha məsələnin iqtisadi tərəfi önə çıxdı: "Avropa Yenidənqurma və İnkişaf bankının Prezidenti qeyd etdi ki, biz Azərbaycana 250 milyon dollarlıq sərmayə yatırmağı planlaşdırırıq. Hazırki mərhələdə biz bilirik ki, perspektivli sahələr bütün dünya iqtisadiyyatında telekommunikasiya və eneji sahələridir ki, məhz bu istiqamətdə Azərbaycan önümüzdəki post-pandemiya mərhələsində Avropa Yenidənqurma və İnkişaf bankı ilə fəal tərəfdaşlıq edəcəkdir. Şübhəsiz ki, bu tipli banklar iqtisadi səmərəliliyi və iqtisadi perspektivi olmayan ölkələrə sərmayə yatırmırlar. Hazırki mərhələdə bu cür nüfuzlu bankın Azərbaycan iqtisadiyyatına sərmayə yatıracağını bəyan etməsi Azərbaycan iqtisadiyyatının cəlbedici və perspektivli olmasından xəbər verir. Digər sərmayədarlar üçün də nümunəvi bir model təşkil edəcəkdir. Bu isə ondan xəbər verir ki, Azərbaycanda həyata keçirilən şəffaf-iqtisadi münasibətlər, aparılan islahatlar, xarici investorlar üçün münbit şəraitin olması daha çox xarici investisiya cəlb edəcək".

# Karantdən sonra ilk növbədə kimlər paytaxta qayıda biləcəklər?

May ayının 4-dən etibarən şəhərlərarası nəqliyyat bərpa olunduğu halda, paytaxta gələn insanların daşınması mərhələli şəkildə aparılacaq. SİA-nın məlumatına görə, bunu açıqlamasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova bildirib.



Onun sözlərinə görə, hələlik mayın 4-dən şəhərlərarası daşınmanın açılmasına dair Operativ Qərargahdan quruma heç bir tapşırıq gəlməyib: "Lakin hərəkətin bərpa olunması təqdirdə, artıq 56 avtovağzal və avtostansiyalara DANX tərəfindən rəsmi məktub və tapşırıqlar ünvanlanıb. Onlar tapşırılan fəaliyyət planına uyğun fəaliyyət göstərəcəklər. Bu məktubda əsasən bildirilir ki, həmin avtovağzal və avtostansiyalar gücləndirilmiş iş rejimində çalışacaqlar. Yollar açıldığı təqdirdə avtobusların sayı da artırılacaq. Ancaq bir məqamı vurğulayım ki, hər kəsin bir anda şəhərə gəlişi təmin olunmaycaq. Bunlar hamısı mərhələli şəkildə aparılacaq. İlk növbədə paytaxt və Sumqayıt sakinləri gələ biləcəklər. Daha sonra isə digər məqsədlə şəhərə qayıtmaq istəyənlərin gəlişi təmin olunacaq".

# Azərbaycan koronavirusla mübarizənin önündədir

## Ölkəmizin nümunəsi əksər dünya ölkələrində tətbiq olunur



***Bu gün bəşəri bəlaya çevrilən koronavirus epidemiyasına qarşı mübarizə dünyanın bir nömrəli probleminə çevrilib. Ölkələr bütün qüvvələrini, əlaqələrini bu bəlanın birlikdə aradan qaldırılmasına yönəldib. Ancaq görünən odur ki, hələ ki, bu bəlanın minimuma endirilməsi istiqamətində göstərilən səylər nəticəsiz qalmaqdadır. Hər gün koronavirusa yoluxanların və ölənlərin sayı artmaqdadır. Koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus 210 ölkə və bölgədə qeydə alınıb.***

Dünyada koronavirus infeksiyasına indiyədək yoluxanların sayı 2 milyonu keçib, qurbanların sayı isə, 220 mindən çoxdur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) fevralın 11-də infeksiyanın adını "COVID-19" qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib. Dünyanı bürüyən koronavirus infeksiyasının zərərlərini minimuma endirmək üçün Azərbaycan dövləti məqsədyönlü tədbirlər həyata keçirdi və bu gün də, bu tədbirlər sistemli şəkildə davam etdirilməkdədir. Düzgün şəkildə aparılan mübarizənin nəticəsidir ki, ölkəmiz yalnız regionda deyil, bütün dünyada koronavirus təhlükəsinə adekvat reaksiya verən, zamanında qabaqlayıcı tədbirlər görən azsaylı dövlətlərdən biridir. Məhz buna görə də digər dünya dövlətləri ilə müqayisədə Azərbaycanda koronavirusun yayılma tempi azdır. May ayının 4-ə qədər ölkəmizdə xüsusi karantin rejimi elan edilib ki, məqsəd sosial izolyasiya tədbirlərini genişləndirmək, bununla da virusun yayılmasının qarşısını almaqdır. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın koronavirusla mübarizə tədbirlərini yüksək qiymətləndirib və ölkə Prezidenti İlham Əliyevə ünvanladığı məktubunda buna görə, Ona öz təşəkkürünü bildirb. Tedros Adhanom Qebreyesus keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb. Baş direktor bu yaxınlarda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən video konfrans formatında toplantıda koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib. Tedros Adhanom Qebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb. ÜST-nin baş direktoru Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan qlobal səviyyədə bu mübarizəyə 5 milyon ABŞ dolları vəsait ayırıb. "Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir", - deyə Tedros Adhanom Qebreyesus bildirib.

### "Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir"

Azərbaycanda tətbiq olunan izolyasiya dövründə əhalinin sosial təminatı da nəzərə alınıb. 65 yaşdan yuxarı tənha şəxslərə yardımlar edilib, aztəminatlı ailələrə, muzdlu işçilərə, kiçik və orta sahibkarlara dövlət tərəfindən maddi dəstək göstərilib.

Azərbaycan Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük" çağırışı ölkə vətəndaşlarının yenidən bir bayraq altında birləşməsinə təkan oldu. "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmamışdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə keçirilən videokonfransda deyib.Dövlət başçısı bildirib: "Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik. Biz əlavə laboratoriyalar yaratmışıq və hazırda onların sayı 18-dir. Koronavirusa yoluxmuş pasiyentlər 22 dövlət xəstəxanasında, o cümlədən yeni istifadəyə verilmiş 575 çarpayılıq müasir xəstəxanada müalicə olunurlar. Hazırda karantin rejimində 2000-ə yaxın vətəndaşımız var və bu rəqəm aşağı düşməkdədir. Bu insanlar xaricdən gələnlər və onlarla təmasda olmuş şəxslərdir. Onlar 4-5 ulduzlu mehmanxanalarda yerləşdirilib və yüksək standartlara cavab verən şəraitlə təmin ediliblər. Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika var. Yəni, sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır. Dünəndən biz məhdudlaşdırıcı tədbirləri yumşaltmağa başlamışıq. İqtisadiyyatımıza təsirə gəldikdə, əlbəttə, təsir mənfi olacaqdır. Bizim ilin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzərə salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində artım isə 23 faizdir. Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilmişdir. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib". Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşündə də əsas müzakirə mövzusu pandemiya ilə mübarizədə dövlətlərin birlik nümayiş etdirəsi oldu. Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyev çıxışında bildirdi ki, koronavirus pandemiyası ən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır".

### "Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır"

"Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır", deyən Cənab Prezident onu da bildirmişdir ki, məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır: "Mənim Sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir".

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında onu da bildirmişdir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır: "Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk".

Söz yox ki, pandemiyaya qarşı mübarizədə Azərbaycanın əldə etdiyi uğurların başlıca səbəbi milli birliyin daha geniş və əhəmiyyətli dərəcədə möhkəm olmasıdır. Səmimi və mehriban əsaslar üzərində qurulan dövlət-vətəndaş birliyi onu deməyə əminlik yaradır ki, Azərbaycan bu sınaqdan da uğurla və şərəflə çıxacaq.

**İ.ƏLİYEV**

# Koronavirus insanları evə çağırır

***Donald Tramp miqrantların ABŞ-a iki ay müddətinə girməsini qadağan edib. Bu dövrü istənilən qədər uzatmaq olar və heç kim ABŞ prezidentinin bunu etməyəcəyinə zəmanət verə də bilməz. Düzdür, birləşmiş ştatlar prezidenti qadağaların pandemiyanın bitməsindən sonra götürüləcəyi barədə də bəyan edib. Amma Trampın "Koronavirus üzərində qələbədən sonra" ifadəsi eyni ilə "Dünya inqilabının qələbəsindən sonra" kimi bir şəkildə səslənir. Heç kim bu tarixlər haqqında heç bir təxmin edə bilməz və bunun nə vaxta çəkəcəyi də bəlli deyil.***

Söhbət miqrantların infeksiyanı, xəstəliyi yaymasından getmir, halbuki, əslində elə həqiqət də budur ki, infeksiyanın yayılması məhz bu səbəbdəndir. Heç kəsin xətrinə dəyməsin, amma etiraf edək ki, virusun planetdə sürətlə yayılması qlobal dünya, sərhədlərin açılması və milyonlarla insanın evlərindən kənarda istirahət və işləmək vərdişləri sayəsində mümkün olub.

Məsələ burasındadır ki, Tramp üçün əsas məsələ heç də infeksiya və xəstəlik deyil və onu narahat edən amerikalıların özlərinin çalışa biləcəyi işləri miqrantların ələ keçirməsidir. O, hələ seçkidə qalib gəlməmişdən də əvvəl, istehsalı ABŞ-a qaytaracağına, Meksika ilə sərhəddə bir divar quracağına və miqrasiya islahatlarını həyata keçirəcəyinə söz vermişdi.




Trampın miqrasiya islahatı onsuz da lap əvvəldən düzgün nəticə verməyib. İran, İraq, Liviya, Somali, Sudan, Suriya və Yəmən vətəndaşlarının ABŞ-a girişinə müvəqqəti qadağa qoyulması, qanunsuz miqrantlara sığınacaq verilməsinin qadağan edilməsi barədə prezident sərəncamları sərt müqavimətlə qarşılanıb. Bütün bunlar irqçiliyin və ksenofobiyanın təzahürü kimi ortaya çıxıb, baxmayaraq ki, Tramp ucuz işçi qüvvəsinin axışını məhdudlaşdırmaq istəyib və qeyd edək ki, Amerika əhalisinin bir hissəsi bu işdə onu dəstəkləyib.

ABŞ-ın siyasi sistemi belədir ki, prezident çox vaxt millət vəkillərinin və xarici hakimiyyətin müqavimətini dəf edə bilmir. Yalnız o nəyin gerçəkləşdiyini xəyal edə bilər. Təsəvvür edək ki, belə bir məqamda da koronavirus peyda olur və sərhədlər bağlanır. Bütün dünya mübaliğəsiz şəkildə bunu edir. Tramp da bundan istifadə etməkdən zövq alır. Yəni bir növ işinə yarayır. Həmkarının və partiya üzvü Don Beyerin fikrincə, Trampın qərarı "yalnız bir ksenofobik cəhddir". Heç şübhəsiz ki, Trampın əleyhdarlarına onun qərarlarına etiraz etmək artıq daha çətindir və səbəb də epidemiyadır. Amerikada demək olar ki, 50 min qurban var və bu şəraitdə sərt tədbirlər görmək tələb olunur ki, buna qarşı da kiminsə gəlməyə ən azından cəsarəti ola bilməz.

Bütün bu qadağaların, tədbirlərin fonunda Tramp bütün ölkəni ən qısa müddətdə işə göndərmək arzusundadır. Bir növ pandemiyanı bəhanə edərək sərhədləri bağlamağına haqq qazandırdıqdan sonra amerikalıların işə göndərilməsi birbaşa ABŞ prezidentinin istəyinə uyğundur. Bu Tramp üçün ideal bir mənzərədir, miqrantların girişi qadağandır, böhran və epidemiyadan güclü zərbə almış amerikalılar əvvəllər rədd etdikləri hər hansı bir işi görməyə hazırdırlar. Məhz belə bir şərait ştatlar prezidentinin tam olaraq işinə yarayır.

Ancaq məsələ burasındadır ki, bu işin də iki tərəfi, necə deyərlər iki başı var. Heç şübhəsiz ki, insanları işlə təmin etmək üçün iqtisadiyyatın hərtərəfli fəaliyyətə başlaması tələb olunur. Amma etiraf etməkdən başqa çarə yoxdur ki, dünyanın iqtisadi fəaliyyəti praktik olaraq sıfıra endirildiyi zamanda bu da mümkün deyil. İqtisadiyyatın fəaliyyətə başlaması yalnız bütün ölkələr iqtisadi fəaliyyətlərini bərpa etdikdə və sərhədlərini açdıqda mümkündür. Bu isə o deməkdir ki, miqrantlar məsələsi yenidən ortaya çıxacaq, gündəmə gələcək. Avropada da oxşar hadisələr baş verir. Avropa Birliyinin şərqə doğru genişlənməsinin ilk günlərindən etibarən hesab edirdilər ki, Polşa, Rumıniya, Macarıstan, Çexiya, Slovakiya və Baltikyanı ölkələrin sakinləri istəmədikləri işlərə cəlb olunması üçün kiçik bir əməkhaqqına da razıdırlar.

Heç şübhəsiz ki, əvvəllər xaricdə işləyən bir çox insan, keçmiş həyatına qayıda bilməyəcək və evdə qalmaq məcburiyyətində qalacaq. Bir çox ölkələrdən olan miqrant işçilər vətənlərində qalmaq məcburiyyətindədirlər. Geriyə dönüş mümkündürmü? Bu gün avropalılar hələ də epidemiyanın bitməsindən sonra əvvəlki həyat tərzinə qayıtmalarını gözlədiklərini sosial şəbəkələrdə yazırlar. Ancaq onlar özləri də kifayət qədər şübhə ilə buna yanaşırlar və daha dəqiq desək yazsalar belə özləri də inanmırlar. Bəlkə də ola bilsin ki, çoxları geri dönə biləcəklər. Almaniyada deyirlər ki, Polşa və Ukrayna işçilərinin olmaması kənd təsərrüfatı üçün fəlakətdir və tibb işçiləri üçün məhdudiyyətlər də artıq qaldırılır. Sual oluna bilər ki, çalışqan almanların tarlalarda işləməyə razı olmaları üçün mövcud vəziyyət nə qədər davam etməlidir?

Epidemiya hələ bilinmir ki, nə vaxt bitəcək. Bunu indidən söyləmək absurd səslənə bilər. Belə bir proqnoz verilsə belə kimsənin inanacağını da gözləməyə dəyməz. Heç Avropanın sərhədlərinin də nə vaxt açılacağı bilinmir. Makron özü belə hesab edir ki, payıza qədər bu baş verə bilməz.

Əlbəttə ki, biznes ilk əvvəl bərpa edilməyə başlanılmalıdır. Ancaq bir çox sənaye, istehsal sahələri üçün bu bərpa olunma noqdaundan da yox, bir nokautdan sonra reallaşma deməkdir ki, burada artım gözləmək çətin məsələdir. Həkimlərin də dediyi kimi, belə zərbələrdən sonra dönməz dəyişikliklər baş verir və etiraf etmək lazımdır ki, iqtisadiyyatda, ələlxüsus biznesdə də belədir.

Nə qədər əlverişsiz, qeyri-adi və xoşagəlməz olsa belə, insanlar tədricən yeni bir vəziyyətə, bu hala alışacaqlar. Çünki insan hər vəziyyətə alışır. Əslində başqa çıxış yolu da yoxdur cəmiyyətin razılaşmaqdan savayı. Çünki, bu vəziyyətlə barışmamaq və alışmamaq daha acınacaqlı nəticələr vəd edir.

Pandemiyanın dünyanı tanınmaz dərəcədə dəyişdirəcəyi, qlobalizmin sarsıdıcı bir zərbə aldığı barədə bu gün çox danışılır. Bu əlbətdə ki, bir şişirtmədir və bu qədər də şişirdilmiş şəkildə təsvir etmək yersizdir. Qlobalizmin çox böyük dözümlülük dərəcəsi var və beynəlxalq şirkətlər həmişə mümkün qədər işçi qüvvəsinə qənaət etməyə can atacaqlar və buna görə də istehsalın daha ucuz olduğu yerə daşınmasına da çalışacaqlar.

Ancaq etiraf edək ki, bəzi pozulmuş bağları bərpa etmək artıq mümkün olmayacaq. Çünki onları başqaları əvəz edəcək. Bəli, artıq bir çox insan dəyişən vərdişlərə sahib olub. Bir çoxlarının həyata baxışları da artıq dəyişib. Digərlərininki də dəyişməkdədir. Məsələn bir çoxları, öz ölkələrində səyahət etmək imkanlarını aşkarlayıblar və indi də bu vərdişə yiyələnirlər. Şahidi olurlar və dərk edirlər ki, öz yaşadıqları yerdə, evdə belə görməli şeylər çoxdur və bu səbəbdən də hər kəs buna alışır və bununla həm də razılaşır. Bir növ koronavirus hər kəsi evə çağırır.

***İnam Hacıyev***

## Xidmət yoldaşını güllələyən erməni əsgər özünə qəsd edib



Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgərlər arasında nizamnamədən kənar münasibətlər zəminində baş verən daha bir cinayət faktı ortaya çıxıb.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, hərbi qulluqçular tərəfindən təhqirlərə və təzyiqlərə məruz qalan əsgər Arman Mesropyan odlu silahdan atəş açmaqla özünə qəsd edib. Şahidlərin dediyinə görə, özünə qəsd etməzdən əvvəl A.Mesropyan odlu silahdan atəş açaraq onunla birlikdə bölükdə feldşer kimi xidmət edən digər hərbi qulluqçunu da ağır yaralayıb. Faktla bağlı araşdırma aparılır.

## Cəlal İsayev: vətəndaşlar Operativ Qərargahın tövsiyələrinə əməl etməsələr, infeksiyanın yenidən baş qaldırması mümkündür

Nazirlər Kabinetinin qərarına əsasən aprelin 27-dən etibarən xüsusi karantin rejiminin məhdudiyyətlərinin bir qismi yumşaldılıb. Nəticədə bir çox sahə öz fəaliyyətlərini bərpa ediblər. Belə olan halda virusun yayılma ehtimalı da artır.



AZƏRTAC xəbər verir ki, virusun yayılma ehtimalının qarşısını almaq üçün diqqət edilməli məqamlar haqqında Nazirlər Kabineti yanında Operativ Qərargahın üzvü, respublikanın baş infeksionisti Cəlal İsayev açıqlama verib.

O bildirib ki, məhdudiyyətlərin bir qisminin yumşaldılması bəzi vətəndaşlara öz fəaliyyətini bərpa etməyə imkan verib. Lakin bu, o demək deyil ki, insanlar tam sərbəst şəkildə hərəkət edə bilərlər. Bu dövrdə belə verilən tövsiyələrə dəqiqliklə əməl etmək vacibdir. Əks halda infeksiyanın təkrarən baş qaldırması mümkündür. Əgər vətəndaşlar bu dövrün qalmasını istəyirlərsə, təklif olunan bütün tövsiyələrə riayət etmələri şərtdir.

"Bu virus hava-damcı infeksiyasıdır. Hava-damcı yolu ilə yayılması epidemioloji cəhətdən çox təhlükəlidir. Digər yollarla, yəni əllə təmas vasitəsilə, qida vasitəsilə də yayıla bilər. Lakin əsas hava-damcı yolu ilə yayılır. Ona görə də insanların təcrid olunması, kütləvi toplanma yerlərinə getməməsi, maskadan istifadə etməsi zəruridir. Xüsusən təcrid olunmağa diqqət yetirilməlidir. Hər kəs başqa insanlarla təmasdan çəkinməlidir. Əks halda xəstəliyin yayılma ehtimalı var və təkrar baş qaldırması müşahidə oluna bilər. Əgər yumşaldılma tədbirlərinin qalmasını, virusun yayılmasının qarşısını almaq istəyiriksə, tövsiyələrə əməl etmək vacibdir. Vətəndaşlara müraciət edib bildirmək istəyirəm ki, karantin tədbirlərinin tez yumşaldılması, tez aradan qaldırılmasını istəyirlərsə, Operativ Qərargahın tövsiyələrinə ciddi riayət etsinlər. Özümüzü və yaxınlarımızı qorumaq üçün buna məcburuq".

## Azərbaycan 10,4 milyon dollarlıq peyk xidmətləri ixrac edib

2020-ci ilin yanvar-mart aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 24 ölkəsinə 10,4 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. Bu barədə SİA-ya İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən məlumat verilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib. "Azərkosmos" ASC-nin 2020-cu ilin yanvar-mart aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Birləşmiş Krallıq, Fransa, BƏƏ və Almaniyadır.

# Prezidentə yazırlar: Xalqımızın sağlamlığını hər şeydən üstün tutmağınız bizi çox qürurlandırır

***Bütün dünyanı cənginə almış koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız Azərbaycan xalqının bu bəladan xilas olması üçün dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla dövlətimizin başçısına ünvanlanan bir sıra məktubları təqdim edir.***

Şəki şəhərindən Sosialist Əməyi Qəhrəmanı Baba Səmədov yazır: "Çox hörmətli Prezident, koronavirusun dünyanı cənginə aldığı dövrdə ölkəmizdə bu bəlaya qarşı gördüyünüz qabaqlayıcı tədbirlərə görə Sizə minnətdarlığımı bildirirəm. Mən fəxr hissi keçirirəm və qürrələnirəm ki, Sizin Prezidenti olduğunuz dövlətdə yaşayıram. Siz xalqınızı canınızdan da çox istəyirsiniz. Əminik ki, bu şərəfli işinizi bundan sonra da uğurla davam etdirəcəksiniz".

Neftçala rayonunun Boyat kəndinin sakini Əlihüseyn Hacıyev: "Hörmətli cənab Prezident, Sizin tapşırığınızla görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, Azərbaycanda koronavirus pandemiyasi tam nəzarət altındadır. Halbuki dünyanın ən inkişaf etmiş ölkələrində virusa yoluxma və ölüm halları dəfələrlə çoxdur. Əlbəttə, bu, Sizin uzaqgörənliyinizin sayəsindədir. Sizinlə fəxr edirik. Allah Sizə və ailənizə cansağlığı versin! Mən Sizin vətəndaşa necə dəyər verdiyinizin canlı şahidi olmuşam. 2017-cl ildə Neftçalaya səfəriniz zamanı mənim fermer təsərrüfatımda oldunuz, təsərrüfatın üzvləri ilə səmimi görüş keçirdiniz, müvafiq tövsiyələr verdiniz. Biz Azərbaycan xalqı fəxr edirik ki, Sizin kimi liderimiz var. Bu işləriniz bir daha sübut edir ki, Siz Azərbaycan xalqının dahi lideri Heydər Əliyevin davamçısınız. Allah Sizi qorusun!".

Qubadlı rayonundan məcburi köçkün İlkin Cabbarlı: "Çox hörmətli möhtərəm Prezident, mən bir Azərbaycan gənci olaraq bu çətin dövrdə biz məcburi köçkünlərə göstərdiyiniz qayğıya görə Sizə öz adımdan və məskunlaşdığımız yataqxananın məcburi köçkünləri adından təşəkkür edir, dərin minnətdarlığımızı bildiririk. Bir daha bəyan edirik ki, dövlətçiliyimizin inkişafı, xalqımızın xoşbəxtliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizədə daim Sizi dəstəkləyirik və Sizinləyik. Hər şey üçün təşəkkür edirik".

Bakı şəhərindən tələbə Fuad Paşayev: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi kimi müraciət edərək, həm bizə yaradılan şəraitə, həm tətbiq edilmiş onlayn dərs sisteminə, həm də bu ağır günlərdə xalqımıza qayğı göstərib yanımızda olduğunuza görə təşəkkürümü bildirirəm. Televiziyada Sizə yazılan məktubları görüb mən də öz təşəkkürümü və minnətdarlığımı çatdırmaq qərarına gəldim. Mənim ən böyük arzum Dövlət Sərhəd Xidmətində zabit kimi çalışıb Azərbaycan Respublikasına xidmət etməkdir. Həm hərbi xidmətə olan marağım, həm də Prezidentimə, xalqıma olan sevgim məni bu peşənin vurğunu edib. Zamanı gəldikdə Sizin əmrinizlə torpaqlarımızı geri qaytarmaq üçün mətanətlə ən irəlidə getməyə hazıram. Mənim anam da bir tibb işçisi olaraq koronavirusa qarşı ən öndə mübarizə aparanlardandır. İnşallah, bu ağır günləri geridə qoyub gözəl günlərə addım atacağıq. Cənab Prezident, bir daha Sizə və ailənizə təşəkkür edirəm. Bu sınaq günlərində Sizə cansağlığı, uğurlar arzulayıram. Allah Sizi qorusun!".

Astara rayonunun sakini, şəhid anası Saray Fərziyeva: "Möhtərəm cənab Prezident, ölkəmizdə şəhid ailələrinə olan yüksək münasibət Sizin şəhidlərin ruhuna sonsuz ehtiram hissinizdən, şəhid ailələrinə olan böyük qayğınızdan irəli gəlir. Mən Heydər Əliyev Fondunun xətti ilə müayinə və müalicə olunduğuma görə Sizə və Mehriban xanım Əliyevaya sonsuz təşəkkürümü bildirirəm. Əziz Prezidentimiz, ölkəmizdə koronavirusa qarşı mübarizə çərçivəsində vətəndaşların sağlamlığını düşünməyiniz, karantin dövründə maddi çətinliklərlə üzləşmiş ailələrə etdiyiniz yardımlar, pandemiyaya qarşı yüksək səviyyədə qabaqlayıcı tədbirlərin təşkili bir şəhid anası kimi ürəyimə rahatlıq gətirir. Övladımın düşmənlə mübarizədə şəhid olması ilə nə qədər qürur duyuramsa, nəvə-nəticələrimin bu virusun qurbanına çevrilməsindən o qədər vahimələnirəm. Çox sağ olun ki, xalqımızı bu bəladan qorumaq üçün bütün imkanları səfərbər edirsiniz. Gördüyünüz bütün işlərə görə 117 ailə üzvüm - 17 övladım, 45 nəvə və 55 nəticəm adından Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı hər bir işdə Sizə güvənir, dəstəyinizi, gücünüzü daim hiss edir, Sizinlə qürur duyur. Tanrı Sizi və xalqımızı qorusun!".

Zəngilan rayonundan məcburi köçkün, Qarabağ müharibəsi veteranı Sultan Şükürov: "Hörmətli cənab Prezident, Siz hər zaman vurğulayırsınız ki, "Mən hər bir azərbaycanlının Prezidentiyəm və hər bir azərbaycanlının yanındayam". Biz də bunu həmişə hiss edirik. Bu çətin dövrdə Sizin xalqın yanında olmağınız buna bariz nümunədir. Məhz buna görə Sizə minnətdarıq. Cənab Prezident, hər çətin gündə Sizinlə yanaşı olan, Sizinlə çiyin-çiyinə xidmət edən, xalqına diqqət və qayğısını əsirgəməyən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya da "Çox sağ olun" deyib, minnətdarlığımızı bildiririk. Ulu öndər Heydər Əliyevin siyasi irsini sevən və dəstəkləyən bir nəslin nümayəndəsi kimi Sizi bir seçiciniz olaraq hər zaman dəstəkləmişəm və dəstəkləyəcəyəm. Sizinlə yanaşı, Sizi dəstəkləyənlərə də "çox sağ olun" demək istəyirəm. Sizə xain gözlə baxanları isə pisləyirəm. Möhtərəm Prezident, Sizə uğurlar arzulayıram. Ulu Tanrı Sizi qorusun!".

Qubadlı rayonundan məcburi köçkün Kamil Əhmədov: "Hörmətli cənab Prezident, ölçüyəgəlməz xidmətlərinizə görə bir vətəndaş kimi Sizə minnətdarıq. Mən gənc dövlətimizin dünya dövlətləri arasında böyük nüfuza malik olmasından qürur duyuram. Siz çətin anlarda, təbii fəlakətlər zamanı vətəndaşın yanında oldunuz. Məcburi köçkünlərə qayğınız isə ölçüyəgəlməzdir. Münxendəki görüşdə Paşinyana dərs keçməniz isə Sizə olan sevgimizi qat-qat artırdı. Son zamanlar ölüm kabusuna çevrilmiş, dünya iqtisadiyyatını iflic vəziyyətə salmış, bəşəriyyətə qlobal təhlükə yaradan koronovirus pandemiyası ölkəmizə də təsirsiz ötüşməmişdir. Mənim yaşım 65-i ötüb. Pandemiya ilə mübarizə tədbirləri haqqında məlumatları, Sizin çıxışlarınızı mətbuatdan izləyirəm və hər gün qürur hisləri keçirirəm. Görürük ki, Sizin üçün hər bir Azərbaycan vətəndaşının sağlamlığının qorunması bu gün hər şeydən irəlidir. Mən də xalqımızı həmrəyliyə səsləyən, "Biz birlikdə güclüyük!" çağırışı edən rəhbərə "Min alqışlar olsun" deyirəm. Yaranmış iqtisadi vəziyyətdə də Siz birinci növbədə vətəndaşlarımızı düşündünüz. Sizin atdığınız hər bir addım bizdə nikbinlik yaradır. Heydər Əliyev Mərkəzinin binasının üzərində pandemiyadan əziyyət çəkən ölkələrin bayrağının dalğalandırılması Azərbaycandan bütün dünyaya sülh, dostluq, tolerantlıq, insanlığa sevgi mesajı idi. Böyük Yaradan adı Azərbaycan dövlətçilik tarixinə əbədi həkk olunmuş ümummilli liderimiz Heydər Əliyevin davamçısı kimi Sizi hifz etsin!".

Azərbaycan Texnologiya Universitetinin tələbəsi Elxan Hüseynovun məktubunda deyilir: "Möhtərəm cənab Prezident, hazırda bəşəriyyət koronavirus pandemiyasının yaratdığı problemlərlə, böhranlarla üz-üzə qalmışdır. Pandemiyanın təhlükəsinin miqyası inkişaf etmiş dövlətlərin düşdüyü dəhşətli vəziyyətdə öz əksini tapmışdır. Belə bir fövqəladə vəziyyətdə verdiyiniz düzgün qərarlar, qabaqlayıcı tədbirlər, sosial rifahın yüksəldilməsi tədbirləri Sizin Azərbaycan xalqı üçün qayğıkeş lider olmağınızın təzahürüdür. Şəxsiyyətindən, yaşından və dinindən asılı olmayaraq həmişə vətəndaşlarımızın yanında olmuş, dərdlərinə dərman olmusunuz. Xarici media orqanlarında Azərbaycan Respublikasının pandemiya ilə apardığı mübarizə modelini nümunə kimi göstərildiyini görəndə dərin fəxr hissi keçirdirəm. Xalqımızın rifahı üçün göstərdiyiniz xidmətə görə Nizami yurdu Gəncədən Sizə ailəmizin səmimi qəlbdən Salamını göndərir və dərin minnətdarlığımızı bildirirəm".

Qax rayonunun Zəyəm kəndindən Pənah Baliyev yazır: "Möhtərəm cənab Prezident, qürurla deyə bilərik ki, bütün bəşəriyyət üçün təhlükə yaradan koronavirus pandemiyasının ölkəmizdə yayılmasına qarşı mübarizə Sizin rəhbərliyinizlə çox yüksək səviyyədə təşkil olundu, dövlətimiz tərəfindən zamanında qəbul edilən mükəmməl qərarların müsbət nəticələri artıq göz qabağındadır. Cənab Prezident, kommunal xərclər üçün limitin artırılması, aztəminatlı və imtiyazlı ailələrə yardım paketlərinin çatdırılması, işsizlərə birdəfəlik ödənişlərin verilməsi, bir sözlə, hər bir azərbaycanlının dövlətimizin diqqət və qayğısının mərkəzində olması Sizin hər zaman vətəndaşları düşünməyinizin aydın təzahürüdür. Hörmətli cənab Prezident, xalqımıza daim dayaq olaraq, bizim həyat şəraitimizin yaxşılaşdırılmasına, sağlamlığımızın qorunmasına və problemlərimizin anında həll edilməsinə göstərdiyiniz xüsusi diqqətə görə şəxsən öz adımdan, kəndimizin bütün sakinləri adından Sizə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildirirəm. Ulu Tanrı Sizi qorusun!".

Salyan rayonunun Aşağı Kürkəndi kəndinin sakini Nuranə Dadaşova: "Hörmətli cənab Prezident, Azərbaycanda koronavirus pandemiyası yayılan andan indiyədək ölkəmizi, xalqımızı mümkün olacaq itkilərdən və iqtisadiyyatımızı ziyanlardan maksimum şəkildə qoruya bildiniz. Tapşırıqlarınız əsasında hökumət tərəfindən görülmüş tədbirləri müsbət qiymətləndirərək, Sizə, ailə üzvlərinizə və bütün dövlət strukturlarına minnətdarlığımı və sonsuz təşəkkürlərimi bildirirəm. Karantin zamanında bizə edilmiş maddi yardımlara görə bütün sahibkarlar adından Sizə xüsusi minnətdarlığımı çatdırıram. Bu yardımlar hazırkı dövrdə neçə-neçə ailənin maddi sıxıntısını minimuma endirdi. Bütün bu işlər vətəndaşlara diqqətinizin və insanların sağlamlığını hər şeydən üstün tutmağınızın, xalqımızla həmrəy olmağınızın bariz nümunələridir. Allahdan bütün arzularınızın yerinə yetməsini və xalqımıza etdiyiniz yaxşılıqların əvəzini almağınızı diləyirəm. Ulu Tanrı Sizi, yaxınlarınızı və bütün xalqımızı qorusun!".

Beyləqan rayonunun sakini Səkinə Hüseynova: "Hörmətli cənab Prezident, dünyanı saran COVID-19-un Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün atdığınız qabaqlayıcı addımlar ölkəmizdə xəstəliklə bağlı vəziyyətin yaxşılaşmasına səbəb oldu. Xalqımızın sağlamlığının qorunması üçün karantin rejimi tətbiq edilməsəydi, bəlkə də indi xəstələrin sayı ilə bağlı rəqəmlər bu virusun faciələr törətdiyi ölkələrdəki ilə eyni olardı. Dünyada xəstəliyə yoluxanların və bu səbəbdən ölənlərin sayında artım tempi müşahidə olunarkən ölkəmizdə koronavirusdan sağalanların sayında dinamika çox müsbətdir. Bu, bizi sevindirir. Cənab Prezident, bu, Sizin yüksək idarəçilik qabiliyyətiniz, hər bir insana qayğıkeş münasibətiniz sayəsində mümkün oldu. Xəstəliklə mübarizə zamanı xalqımıza göstərdiyiniz kömək - əhalinin həssas qrupuna aid insanlara edilən yardımlar, tələbələrin illik təhsil haqlarının dövlət büdcəsi hesabına ödənilməsi, 190 manat məbləğində birdəfəlik müavinətin verilməsi işsiz və həssas əhali qrupuna böyük dəstək oldu. Atam 2-ci qrup əlil, anam isə şəkər xəstəsidir. Siz bizim kimi həssas əhali qrupuna aid olan valideynləri və tələbələri sevidirdiniz. Biz də üzərimizdə çalışaraq, seçdiyimiz ixtisasdan asılı olmayaraq, hər birimiz öz sənətimizi sevərək öyrənib dövlətimizə, xalqımıza şərəflə, layiqli şəkildə xidmət edəcəyik. "Biz birlikdə güclüyük!" çağırışınız işimizdə bizlərə stimul olacaq".

Siyəzən rayonunun Qara Siyəzən kəndindən Təsvir Musayev: "Hörmətli cənab Prezident, bildirmək istəyirəm ki, dövlətə və dövlətçiliyimizə bağlı bir vətəndaş kimi, neft sənayesində çalışan bir



insan olaraq ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasəti dəstəkləyir, gördüyünüz təqdirəlayiq işləri izləməklə yanaşı, həm də təbliğ edirəm. Cənab Prezident, son dövrlər pandemiya ilə əlaqədar Sizin tərəfinizdən və Mehriban xanım Əliyeva tərəfindən xalqımıza ünvanlanan müraciətlər bizdə dövlətimizə qarşı böyük inam hissi oyatdı. Sizin rəhbərliyinizlə koronavirusa qarşı bir çox təşkilati məsələlərin operativ şəkildə həll edilməsi onu deməyə əsas verir ki, dövlətimiz etibarlı əllərdədir. Görülən operativ tədbirlər nəticəsində güc strukturları asayişin qorunmasında fəal iştirak edir, səhiyyə işçilərimiz sanitar-epidemioloji vəziyyətə uyğun koronavirusla bağlı vəziyyətə nəzarət edirlər. Sosial sahədə də aidiyyəti qurumlar vətəndaşların maddi rifahının yaxşılaşdırılması üçün əlindən gələni əsirgəmir. Sizin uzaqgörənliyiniz sayəsində respublikamızda qısa zaman ərzində tibbi maska istehsal edən müəssisə qurularaq istifadəyə verildi, bu xəstəliklə mübarizə üçün modul tipli xəstəxanaların tikintisinə başlanıldı və respublikamıza yeni tibbi ləvazimat və avadanlıqlar gətirildi. Bunlarla yanaşı, dövlətimiz üçün bu çətin anlarda böyük fədakarlıq göstərərək bəzi dost və qonşu ölkələrə yardımlar etdiniz. Cənab Prezident, bütün bunlar Sizin aliliyinizdən, sadəliyinizdən və ucalığınızdan xəbər verir. Dünya arenasında özünəməxsus dəstxətti ilə seçilən bir rəhbər kimi Siz dövləti ilə dövlətləşən, milləti ilə millətləşən, el dilində əfsanələşən bir lidersiniz. Respublikamızın gələcək inkişafı naminə işlərinizdə Sizə uğurlar diləyir, Uca Allahdan xoş müjdələr arzu edirəm".

Ağstafa rayonunun Eynallı kəndinin sakini Nəzrin Rüstəmova: "Hörmətli cənab Prezident, ölkəmizə də gəlib çatmış koronavirus pandemiyasına qarşı mübarizə respublikamızda yüksək səviyyədə təşkil edilib. Karantin rejiminin tətbiqi bu bəladan daha az itkilərlə qurtulmağımıza imkan verdi. Bu xidmətlərinizə görə Sizə minnətdaram. İnsanların sağlamlığını düşünərək verdiyiniz qərar və tövsiyələr öz müsbət nəticələrini göstərməkdədir. İşsiz olsam da karantin rejimində çətinlik çəkmədim. 190 manat birdəfəlik ödəməni də aldım. Sizin sayənizdə karantin günlərini daha rahat keçirdik. Bütün bunlara görə Sizə "Çox sağ olun!" deyirəm. Xalqını fikirləşən Prezident olduğunuz uçun Sizi çox sevirik. Allah Sizi var etsin. Sizə və xalqımıza bu pandemiya ilı mübarizədə səbir diləyirəm. Mən inanıram ki, biz bu imtahandan da üzüağ çıxacağıq. Şəxsən öz adımdan və ailəmin adından Sizə sonsuz təşəkkürlərimi bildirirəm".

Hacıqabul rayonundan Ağarəzi Mehdiyev: "Hörmətli cənab Prezident, yaşlı nəslin nümayəndəsi olaraq respublikamızda pandemiyanın yayılmasının qarşısının alınmasında gördüyünüz təxirəsalınmaz tədbirləri alqışlayıram. Bütün sosial sahələrdə olduğu kimi, vətəndaşlarımızın sağlamlığının qayğısına qalmağınız və onlara göstərilən diqqətiniz xalqımız tərəfindən yüksək qiymətləndirilir. Koronavirus xəstəliyinin qarşısının alınmasını, vətəndaşların sağlamlığının qorunmasını təmin etmək üçün həyata keçirilən tədbirlər hamımızın ürəyincədir. Bu tədbirlərə, vətəndaşların qayğısına qaldığınıza görə minnətdarlığımı bildirir, Zati-alinizə və ailənizə möhkəm cansağlığı, xoş günlər, bundan sonrakı fəaliyyətinizdə uğurlar arzulayıram".

Ağsu rayonunun Çaparlı kəndindən şəhid ailəsinin üzvü Cümşüd Ayadov: "Əziz Prezidentimiz, tarix elminə məlumdur ki, hər bir millətin və xalqın çətin və keşməkeşli anlarında çox güclü bir tarixi şəxsiyyətə ehtiyacı olur. Məhz bu mənada ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev keçən əsrin 90-cı illərində Azərbaycan adlı bu qədim məmləkəti məhv olmaq təhlükəsindən xilas edərək, xalqına arxalanmaqla müstəqil və suveren Azərbaycan Respublikasını qurdu. Ulu Öndər demişdi: "Mən İlhama özüm qədər inanıram". Cənab Prezident, istər dövlətimizin, istərsə də dünyamızın bu çətin, fəlakətli günlərində Siz əməli işinizlə, böyük dövlətçilik təcrübənizlə düşmənlərimizə sübut etdiniz ki, hər bir Azərbaycan ailəsinin yanındasınız, xalqımızın ümid, güvən, pənah yerisiniz. Artıq Sizin təkcə Azərbaycanın yox, dünyanın tanınmış siyasi liderlərindən biri olmağınızla fəxr edirik. Sizin tövsiyə və tapşırıqlarınıza əsasən bölgələrimizdə də həssas təbəqədən olan aztəminatlı ailələrə, eləcə də bütün rayon sakinlərinə xüsusi diqqət və qayğı göstərilir. Uca Allahdan Sizə möhkəm cansağlığı arzulayıram. Tanrı Sizi qorusun!".

Naftalan şəhərinin Qasımbəyli kəndindən Mətləb Quliyev, Şair Rüstəmov, Şahin Eminov, Mübariz Qurbanov və Ələmdar Şükürov yazırlar: "Möhtərəm cənab Prezident, biz - Naftalan şəhər Qasımbəyli kəndinin sakinləri əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi barədə Sərəncamınızla yeni subartezian quyularının qazılacağı yaşayış məntəqələri sırasına bizim kəndimizin də daxil edilməsinə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bu çətin dövrdə, bütün qüvvələrin koronavirusla mübarizəyə səfərbər olunduğu bir zamanda Sizin bu addımınız bizlərdə işləməyə daha böyük həvəs oyadır. Kəndimizdə suvarma suyunun çatışmazlığı neçə illər idi ki, bizi narahat edirdi. Əkin sahələrini vaxtında suvara bilmədiyimizə görə məhsulumuz itkiyə gedirdi. Sizin müvafiq Sərəncamınızla kəndimizdə yeni subartezian quyusunun qazılması əkin sahələrinin su təminatının daha da yaxşılaşdırılmasında və həyətyanı sahələrin suvarılmasında mühüm rol oynayacaqdır. Bu, suvarma suyu məhdud olan kəndimiz üçün bir bayramdır desək, yəqin ki, yanılmarıq. Sizə sonsuz ehtiramımızı bildiririk. Allah Sizi, ailənizi və xalqımızı qorusun!".

Şirvan şəhərindən Vaqif Həbibov yazır: "Salam hörmətli Prezidentimiz, mən Sizə bir Milli Qəhrəman ailəsi olaraq bu təşəkkür məktubunu yazmağı özümə borc bildim. Koronavirusla bağlı göstərdiyiniz diqqətə görə Sizə minnətdaram. Bu çətin günlərdə əsl rəhbər kimi xalqımızın yanında olub bizə dəstək oldunuz. Siz bizə çox qayğıkeşliklə yanaşırsınız, hər birimizə öz isti münasibətinizi göstərirsiniz. Bu minvalla mən də öz vətəndaşlıq borcumu yerinə yetirirəm və Sizə dəstək oluram. Çox sağ olun, cənab Prezident".

Masallı rayonundan Qurbanəli Abbasov, Hikmət Kərimov, Şəfaət Nemətov və Anar Ağarəhimov dövlətimizin başçısına minnətdarlıq edərək yazırlar: "Hörmətli cənab Prezident, koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə elan olunmuş karantin dövründə xalqımıza, o cümlədən Masallı rayonuna göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Daim xalqımızın yanında olmağınızdan, tapşırıq və tövsiyyələrinizlə aztəminatlı ailələrə maddi yardımlar edilməsindən və görülən işlərdən ilhama gələn xalqımızın təşəbbüslərinizə qoşulması bizləri çox sevindirdi. Masallı rayon rabitəçiləri adından bu çətin günlərdə xalqımızın sağlamlığını və təhlükəsizliyini təmin etdiyiniz, dövlətimizin inkişafı uğrunda misilsiz işlər gördüyünüz üçün Sizə təşəkkür edirik".

Şamaxı rayonunun sakini Tərlan Bayramov: "Möhtərəm cənab Prezident, bu çətin günümüzdə bizə yardımçı olduğunuz üçün öz adımdan və ailə üzvlərimin adından Sizə dərin təşəkkürümü bildirirəm. Nə qədər ki, dövlətimizin başında Siz varsınız, heç bir çətinlik ölkəmizə güc gələ bilməz. Allah Sizi qorusun! Yaxşı ki, Sizin kimi ölkə başçımız var. Sizə minnətdarlığımı bildirirəm. İnşallah tez bir zamanda bu bəladan xilas olarıq. Mən özüm kimi hamını evdə qalmağa çağırıram. Özümüzü və ailəmizi qoruyaq. Bir daha təşəkkür edirəm. Sağ olun".

Daşkəsən rayonunun sakini Elnarə Ələsgərova: "Əziz və hörmətli Prezidentimiz, mən qürur hissi ilə bildirmək istəyirəm ki, bizim Sizin kimi humanist, əməlisaleh ölkə başçımız var. Bu gün dünyanı bürümüş COVID-19 virusunun ölkəmizdə fəsadlarının qarşısını almaq məqsədilə verdiyiniz tapşırıqlar həlledici rol oynadı. Xalqın narahatlığı nisbətən azaldı, kütləvi yayılma baş vermədi. Xarici ölkələrdə olan vətəndaşlarımızı, həmçinin tələbələri koronavirusdan qorumaq üçün ölkəmizə gətirtdiniz, xəstələrin qeydinə qalan, onların qayğısını çəkən həkimlərin maaşlarını artırdınız. Bir illik əməkhaqqınızı Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etdiniz. Vətəndaşlara birdəfəlik ödəmə edilməsi ilə bağlı tapşırıqlar da bir daha sübut etdi ki, Siz xalqımıza, ölkəmizə hər bir sahədə qayğı ilə yanaşırsınız. Saymaqla qurtarmayan, ölçüyəgəlməz işlərdir bunlar. Gənc, müstəqil Azərbaycan Respublikası bir çox bəlaların öhdəsindən çox məharətlə gəlmişdir və gələcəkdir. Biz buna heç bir tərəddüd etmədən inanırıq. Çünki bizim qüdrətli ordumuz, asayişin keşiyində duran polislərimiz, gecə-gündüz demədən xalqımızın qeydinə qalan həkimlərimiz və Sizin kimi qayğıkeş və cəsarətli Ali Baş Komandanımız, qürur yerimiz var. Əziz və hörmətli Prezidentimiz, gördüyünüz bütün işlər üçün xalqımız adından bir daha Sizə təşəkkür edir, uzun ömür, cansağlığı, xoş günlər diləyirəm".

Zərdab rayonunun Alıcanlı kəndinin sakini Fərman İsmayılov: "Möhtərəm cənab Prezident, Sizin uğurlarınızı şərtləndirən amillərdən biri də hadisələri öncədən görmək və vaxtında qabaqlayıcı tədbirlər həyata keçirmək bacarığınızdır. Sizin tapşırığınızla görülən çevik, təcili tədbirlər koronavirus bəlasının Azərbaycanda geniş yayılmasına imkan vermədi. Siz populizmdən uzaq, gələcəyə hesablanmış iqtisadi, sosial proqramların müəllifi kimi tanınan dövlət başçısısınız. 2018-ci ildə Prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışınızda inkişafımızın və islahatların gələcək konturlarını açıq-aydın göstərdiniz. Ötən dövrdə bu islahatların ardıcıllıqla həyata keçirilməsinin şahidi olduq. Sizin iradənizə, müdrikliyinizə və fenomen rəhbərlik istedadınıza arxalanaraq inanırıq ki, ölkəmiz pandemiyanın yaratdığı bu çətin vəziyyətdən də şərəflə çıxacaq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək. Belə ki, koronavirusla mübarizənin ilk anlarından verdiyiniz qərarlar tərəfimizdən rəğbətlə qarşılanmışdır. Bu gün Siz də qeyd etdiyiniz kimi, pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi, 300 minə yaxın mikro sahibkarın maliyyə vəziyyətinin təmin edilməsi, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi dəstək alması dövlətimizin və onun Prezidentinin hər zaman xalqın yanında olması deməkdir. Allah Sizi və ailənizi qorusun!".

# “Koronavirus pandemiyası dövlətimizin qarşısında əlacsız qalıb”



Milli Məclisin deputatı Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi:

***- Pərvin xanım, planetimizə qara kabus kimi çökən gözəgörünməz təhlükəli virusun ölkəmizdə yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərlə bağlı fikirlərinizi bilmək istərdik.***

- Sərhəd tanımayan virus dünyanın 170- dən çox ölkəsinə ayaq açıb, bir milyondan çox insanın sağlamlığını təhlükə ilə üz-üzə qoyub. Dünyanın nəhəng dövlətləri gözlə görə bilmədiyimiz düşmənlə mübarizədə böyük itkilər verib, koronavirusun nə qədər təhlükəli olduğu acı reallığın nümunəsi olublar. ABŞ, Almaniya, Fransa, Çin, İspaniya, İran kimi dövlətlərlə müqayisə etdikdə ölkəmizdə fəsadlarının çox aşağı səviyyədə olduğunu da müşahidə edirik. Hazırda dünyada baş verən hadisələri təhlil etdikdə, bir daha Azərbaycan kimi ölkədə yaşamağımızdan qürur duyuruq. Fəxr edirik ki, ilk gündən vəziyyəti nəzarətə götürən, qətiyyətli iradəsi, təşəbbüskarlığı ilə koronavirusun ölkəmizdə sürətlə yayılmasının qarşısı almağı bacaran dövlət Başçımız var.

Koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk gündən Prezidentimiz İlham Əliyev ölkə vətəndaşların sağlamlığının qorunmasını, koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsini bir nömrəli vəzifə kimi qarşıya qoyuldu, bütün diqqəti bu sahəyə yönəltdi. Əhalinin sağlamlığının qorunması və ilə bağlı tədbirlər haqqında Fərman imzalandı, Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı, zəruri tibbi avadanlıqlar alındı, koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müasir tibb müəssisələri ayrıldı, karantin zonaları yaradıldı. Ölkə Başçımızın, Birinci vitse-prezidentimizin bir illik əmək haqlarını, ardınca bir çox qurumların, özəl şirkətlərin və ayrı-ayrı şəxslərin koronavirus infeksiyasına qarşı preventiv addımların atılması üçün yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr bağışlaması dövlətin və xalqın həmrəyliyini, birliyinin daha bir bariz göstəricisi oldu. Eyni zamanda Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın dünyanı cənginə alan virusun ölkəmizdə yayılmasının qarşısının alınması sahəsində vaxtında həssas münasibət göstərmələri, ölkə vətəndaşlarına müraciətləri xalqın pandemiya ilə mübarizəyə səfərbəyliyi üçün böyük stimul oldu.

***- Belə çətin və mürəkkəb anlarda ölkəmizin iqtisadi və sosial gücünün dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmalara müqaviməti bir daha aydın şəkildə özünü göstərdi.***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirə cari ildə əldə olunan iqtisadi, sosial, siyasi uğurların, bütün istiqamətlər üzrə vəzifələrin, gələcəkdə həyata keçiriləcək proqramların, islahatların, eyni zamanda koronavirusla bağlı mövcud vəziyyətin hesabatı oldu.

Ölkə həyatının bütün istiqamətlərinə diqqət çəkən dövlət Başçısının karonavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması və pandemiyanın təsir göstərdiyi sahələrdə inkişaf dinamikasının qorunub saxlanılmasının vacibliyini xüsusi ilə vurğulaması, müəyyənləşdirdiyi hədəflər, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə bağlı mühüm ismarıcları bu gün pandemiya təşvişi ilə yaşayan hər kəsə böyük stimul oldu.

Xüsusi karantin rejimi ilə əlaqədar iş yerlərinin azaldılmaması, müvəqqəti işsiz qalan insanlara maddi yardımların göstərilməsi, 12 min ailənin özünəməşğulluq proqramına cəlb edilməsi, DOST İş Mərkəzləri vasitəsi ilə 90 min ödənişli ictimai iş yerlərinin yaradılması isə koronavirus pandemiyası ilə mübarizədə dövlətimizin böhranlı vəziyyətlərə yüksək hazırlıqlı olmasından xəbər verdi.

Pandemiyanın fəsadlarından qorumaq üçün yeni dəstək proqramının həyata keçirilməsi, 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon vəsaitin ayrılması ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən addımların davamı oldu.

***- Radikal müxalifət Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən sistemli tədbirlərə kölgə salmağa çalışır.***

-Təəssüflər olsun ki, indiki məqamda bütün xalqı koronovirus infeksiyası ilə mübarizəyə qalxdığı zamanda xarici havadarlarının arxasında gizlənən “Beşinci kolon” adlanan qüvvələr çirkin niyyətlərindən əl çəkmirlər. BMT Baş Katibinin, ÜST-ün İcraçı Direktorunun, digər beynəlxalq qurumların Azərbaycanda koronovirusla mübarizə işində dövlətin gördüyü işlərə yüksək qiymət verdikləri halda müxalifətin marginallaşan hissəsi yenə də öz ampluasındadır. Belə bir vaxtda da xaricdəki anti-Azərbaycan qüvvələr, yerlərdəki trollar öz pozuculuq fəaliyyətləri ilə ölkəmizdə pandemiyaya qarşı aparılan tədbirlərə kölgə salmağa çalışır, məkirli planlarını reallaşdırmağa cəhd edirlər.

Lakin unudurlar ki, ölkə Başçısının dediyi kimi “Biz birlikdə güclüyük”. Bu gün hər kəs əmindir ki, tarixi sınaqlardan şərəflə, üzüağ çıxmış birliyimiz sayəsində xalqımız koronavirus pandemiyası ilə mübarizədən minimum itki ilə çıxacaq. Çünki, Azərbaycan xalqının birliyi bütün viruslardan, şər qüvvələrdən, anti-Azərbaycan qüvvələrdən, güclüdür.

***- Ölkəmiz karonavirus bəlasının fəsadlarından az itki ilə çıxmağı bacaracaqmı?***

- Dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır.

Azərbaycan xalqı yaxşı bilir ki, hər zaman xoş gündə də, dar gündə də onların yanında olan dövlət rəhbərləri var. Ölkəmizin daxili və xarici siyasətində əldə edilən uğurlar, iqtisadi tərəqqi, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş operativ tədbirlər, minimum əməkhaqqının, əmək pensiyalarının, bir sıra sosial müavinətlərin artırılması deməyə əsas verir ki, belə çətin vaxtda da Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə xalqımız koronavirus bəlasının fəsadlarından az itki ilə çıxmağı bacaracaq. Pandemiya dövründə islahatlar prosesinin genişləndirilməsi, biznesin qorunması, kiçik və orta sahibkarlara maliyyə yardımının edilməsi, eyni zamanda iş yerlərinin saxlanılması üçün dövlətin dəstəyinin göstərilməsi, aztəminatlı ailələrin sosial müdafiəsi tədbirləri, mərhələli şəkildə imzalanan müvafiq fərman və sərəncamlar cəmiyyətin bütün təbəqəsinin sosial vəziyyətinin, maddi rifah halının, güzəranının yaxşılaşmasına xidmət edib.

Koronavirus pandemiyasının tüğyan etdiyi çətin bir vaxtda Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına aid videokonfrans şəklində müşavirənin keçirilməsi, bütün istiqamətlər üzrə ölkədəki vəziyyətin hesabatı göstərdi ki, koronavirus pandemiyası sabit və dayanıqlı iqtisadiyyatı olan dövlətin qarşısında əlacsız qalır.

# “Paşinyanın addımları onun sonunu gətirəcək”



“Dərin sosial-iqtisadi böhran keçirən Ermənistanın “məxməri inqilabçı” hökuməti siyasi rəqiblərini təqib etməkdə davam edir. Müxalifətçi siyasətçilərin və onların arxasında duran biznes nümayəndələrinin həbsləri baş nazir Nikol Paşinyanın koronavirusun yayılması səbəbindən ölkədə elan olunmuş fövqəladə vəziyyət və karantindən istifadə edərək hakimiyyəti üçün təhlükə törədən daxili siyasi dairələri neytrallaşdırmaq arzusunda olmasını göstərir”. Bunu SİA- ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.

O bildirib ki, Nikol Paşinyan küçə təzyiqi vasitəsilə hakimiyyəti ələ keçirib: “Yəni dövlət çevrilişi ilə hakimiyyəti ələ keçirib: “Mitinqlər zamanı Ermənistan xalqına və nümayişçilərə nə söz vermişdisə, onun heç birini yerinə yetirə bilməyib. Əksinə, Ermənistanı bütün sahələr üzrə əvvəlki vəziyyətdən də pis günə qoyub. Siyasi, iqtisadi diplomatik sahələr Ermənistanda tənnəzül dövrünü yaşayır. Buna görə də hazırda Ermənistanda aktiv qüvvələr var. Nikol Paşinyana qarşı olan həmin qüvvələr olduqca güclüdür. Burada Qarabağ klanını və digər qüvvələri nəzərə almaq lazımdır”. E. Məmmədov hesab edir ki, bu dalğada Nikol Paşinyanın siyasi hakimiyyəti sona yetmək üzrə olacaq: “ Çünki o, özünün siyasi rəqiblərinə qarşı qanunun yol vermədiyi ən qəddar vasitələrdən istifadə edir. Ona qarşı çıxanları çox sərt və özünün anladığı formada cəzalandırır. Düşünürəm ki, Nikol Paşinyanın bu addımları onun tezliklə sonunu gətirəcək”.

# Koronavirusa yoluxan erməni əsgəri intihara cəhd edib



Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçu koronavirusa yoluxduğuna və müalicəsinə komandanlıq tərəfindən laqeyd yanaşıldığına görə intihara cəhd edib .

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Azərbaycanın işğal edilmiş Madagiz yaşayış məntəqəsində yerləşdirilən bölmələrdən birində xidmət edən Enrik Zakaryan koronavirus infeksiyasına yoluxduğu üçün tibb məntəqəsinə aparılıb və müayinə edildikdən sonra geri qaytarılıb.

Həkimlərin və komandanlığın laqeydliyindən hiddətlənən əsgər tabeliyində olan silahdan atəş açaraq özünü öldürmək istəyib. O, hərbi hospitala təxliyə edilib. Komandanlıq hadisənin ailə-məişət zəminində baş verdiyini bildirib. Hərbi polis faktla bağlı araşdırmaya başlayıb.

# Ermənistan parlamentində söyüş və təhqir günü

## Hökumət vətəndaşlara sosial yardım göstərmir, bunu edənləri isə təhqir etdirir

**_Ermənistan parlamentində aprelin 28-də yaşanan deputatlar arasındakı qalmaqal və təhqirlər hələ də davam edir. Məsələ ondadır ki, qarşıdurmanın və qarşılıqlı söyüşlərin səbəbi erməni ailələrinin koronavirus epidemiyası dövründə ac susuz, sosial yardımsız, elektirksiz və qazsız qalmasıdır. SİA panorama.am-a istinadən xəbər verir ki, erməni parlamentinin “İşıqlı Ermənistan” fraksiyasından olan lideri Edmon Marukyan sözügedən davanı arzuolunmaz və qəbuledilməz adlandırıb._**

Belə ki, parlamentin hakim “Mənim addımım” blokundan olan vitse-sikeri Alen Simonyanla qarşıdurmanı da məhz E.Marukyan yaşayıb.

### “İşıqlı Ermənistan” “Mənim addımım”ı ciddi qəbul etmir

Məsələ isə bu cür baş verib. “İşıqlı Ermənistan” fraksiyasının deputatı Ani Simonyan öz çıxışı əsnasında parlamentin tribunasından bildirib ki, o “Mənim addımım” blokundan olan deputat həmkarlarını ciddi qəbul edə bilmir. Onun bu sözlərini partiyadaşları da dəstəkləyiblər və nəticədə Ani Samsoyan bu məsələyə müdaxilə edib, qarşı tərəfin yalan danışdığını bildirib.



Ancaq onun həmin ifadələrinə A.Simonyan dərhal cavab verib. “Xanım Simonyan, üzr istəyirəm, çünki mən evliyəm və arvadım var, təklif edirəm ki, mənim haqqımda az danışasınız, bu heç də yaxşı görünmür. Ancaq bununla yanaşı, mən sizə cavab vermək fikrində deyiləm. Mən sizin ətəyiniz arxasında gizlənən Edmon Marukyana cavab verəcəyəm. Çünki o Qorqisyandan xahiş edir ki, onun yerinə çıxış etsin... Ona grə də mən ona cavab verəcəm və nəyi düşünürəmsə onu deyəcəyəm”.

### Simonyandan Marukyana “Siyasi əski”, Marukyandan Simonyana “Tullantı dölü” təhqiri

Beləliklə, Marukyan dərhal cavab verib və Simonyana “sən” deyə müraciət edib. Simonyan isə Marukyana “Sakitləş, siyasi əski” deyə xitab edib və qarşı tərəfin “Tullantı dölü” təhqirini alıb.

Belәlikə, dava-salaş və söyüşlər bir neçə dəqiqə davam edib və parlamentin spikeri Ararat Mirzoyan vəziyyətə qarışıb. Ancaq bu məsələ parlamentdən sosial şəbəkələrə qədər gedib-çıxıb.

Marukyan feysbukda canlı yayıma qatılaraq bəyan edib ki, 2012-ci ildən parlamentdədir və indiyə qədər bir dəfə də olsun bənzər insidentlərlə qarşılaşmayıb. O, özünü nəzərdə tutaraq soruşub: “İndi belə bir sual yaranır: problem Edmin Marukyandadır, yoxsa başqa problem mövcuddur? Əgər problem Marukyandadırsa, onda necə olub ki, belə hallar daha əvvəllər yaşanmayıb?”.

### Marukyan: “Təklif irəli sürəndə söyüş yiyələrinə çevrilirik, səbr kasamız dolub”

Onun sözlərinə görə, onun rəhbərlik etdiyi siyasi güclər feysbukda təhqir etməyə başlayıblar. Bütün bunlar onların ehtiyacları olan vətəndaşlara sosial yardım göstərmək çağırışlarından sonra yaşanmağa başlayıb. Halbuki onların buna maddi imkanları da var.

“Mənim günahım ondadır ki, mən təklif irəli sürmüşəm və həmin təklifimə lobbilik edirəm. Qarşı tərəf görəndə ki, predmetli diskussiya alınmır, hansı ki, bu parlamentdə ümumiyyətlə mümkün deyil - nəticədə söyüş yiyələrinə çevrilirik. Tribunadan yenidən mənim və həmkarlarımın ünvanına təhqirlər səslənəndə isə, artıq səbr kasası doldu...”, deyə erməni deputat bildirib.

Marukyan əmindir ki, bütün bunlar ona görə baş verir ki, hakimiyyət belə vasitələrlə xalqı sosial problemlərdən yayındırmağa çalışır.

“İnsanlar unutmamalıdırlar ki, hazırda 4300 ailə elektriksiz qalıb və bu ailələrin uşaqları onlayn rejimdə keçirilən dərslərə qatıla bilmirlər. 750 ailədə qaz yoxdur, onlar soyuqda oturublar. Onlar (hakimiyyət) bunu ona görə edir ki, sizin fikriniz yayınsın, şou göstərirlər, ancaq biz buna yol verməyəcəyik”, deyən Marukyan vətəndaşlara sosial yardım etmək təklifini həyata keçirənədək öz fikrində qalacağını bildirib.

*Rövşən NURƏDDİNOĞLU*

# “Ermənilərdən üzr istəyirəm demək, mənim babam qatildir deməkdir”



**_“Avropalılar Osmanlı İmperiyasını məhv etmək üçün xristianların yaşadığı bir ərazidə qarışıqlıq çıxarır, kəsilən donuz başlarını məscidlərə atırdılar.Müsəlmanlar bunu xristianların etdiklərini düşünərək xristian məhəllələrinə basqın edir və beləliklə, Müsəlman-Xristian qarşıdurması başlayırdı. Avropa dövlətləri nota verirlər ki, burada xaos var, xristianlar qətlə yetirilir, buna mane olun. Lakin oradakı bəzi üsyançılara silah verərək üsyana təşviq edirdilər. Avropa dövlətləri də üsyançıların üzərinə əsgər göndərdikdə bu dəfə də xristianları qətl edirlər deyə orduları ilə müdaxilə edirdi._**

Əvvəlcə bu yer muxtar idi. Muxtariyyət aldıqdan sonra həmin dövlət müstəqil olurdu. Bunu yunanlara, bolqarlara və ermənilərə qarşı tətbiq edirdilər. Ancaq ən son Birinci Dünya Müharibəsi başladığı üçün bunu tətbiq etmək şansları olmadı. Erməniləri üsyana təşviq edən İngiltərə, Rusiya və Fansanın siyasətidir. Öz prizmalarından müstəqil bir dövlət qurmaq istəyirdilər. Sadəcə müharibə başladığı üçün qərbdən dəstək ala bilmədilər”. Bunu SİA-ya açıqlamasında Türkiyənin Milli Savunma Universitetinin rektoru, professor Erhan Afyoncu deyib.

Professorun sözlərinə görə, erməni köçürülməsi mümkün bir üsyan üçün deyil, yeni bir qiyamın qarşılığında alınan bir qərardır: “Dövlət öz təhlükəsizliyini təmin etmək üçün bunu etdi. Köçürülmə immiqrasiya deməkdir və bu təkcə ermənilərə qarşı tətbiq edilmir. Bir çox yerdə ölkələr öz təhlükəsizliyini təmin etmək üçün köçürmə siyasəti apardı. Ermənilərin göndərildiyi Osmanlı torpaqlarının başqa bir hissəsi Suriya idi. Acı bir hadisədir. Yolda minlərlə insan öldü. Lakin bu, faktiki olaraq üsyana qarşı alınmış bir önləmdir. Ermənilərdən üzr istəyirəm demək, mənim babam qatildir deməkdir. Üzr istəmək sadə bir hadisə deyil. Bununla soyqırım tezislərini qəbul etmiş olursunuz. Burada soyqırım yoxdur. Müharibə və miqrasiya şəraitində ölənlər var. Ermənilər illərdir ki, böyük təzminat istəyirlər. Lakin heç kim bu cür hadisələrin yaşanmasını istəməz. Və bizlər Hər 24 apreldə ABŞ prezidentinin 1915-ci il hadisələri ilə bağlı nə deyəcəyini gözləyirik. Ancaq erməni probleminin tarixi 1800-cü illərin sonlarında baş verən qiyamlara əsaslanır. Biz ikinci Əbdülhəmid dövründən bəri erməni məsələsini ABŞ-a izah etməyə çalışırıq. Erməni məsələsinin adətən 1915-ci ildə başladığı zənn edilir, ancaq ağırlıqlı olaraq Türkiyənin və Avropanın gündəmində yer alması 1878 Berlin sazişindən sonradır. Yəni bu məsələ 141 illik bir tarixə sahibdir. II Əbdülhəmid hakimiyyətinin çox hissəsində erməni məsələsi ilə məşğul olmaq məcburiyyətində qalıb, ancaq bu məsələdə güzəştə getməyib. Sultan məsələnin götürdüyü siyasi ölçüdən xəbərdar idi. Buna görə də içəridəki ermənilərin terror fəaliyyətlərinə qarşı sərt tədbirlər görərkən, xaricdə Qərb ictimaiyyətini məlumatlandırdı. Zaman-zaman xarici ölkələrin səfirlərini və jurnalistlərini Yıldız Sarayına dəvət edib, Osmanlı İmperatorluğunun və özünün erməni məsələsinə dair fikirlərini izah edirdi. Söylədiklərinin xarici ölkələrin qəzetlərində yayımlanmasını təmin etməyə çalışırdı”.

E.Afyoncu qeyd edib ki, bu mövzunu Türkiyənin İkinci Əbdülhəmid dövrü mövzusundakı ən əhəmiyyətli mütəxəssislərindən Vahdettin Enginin “Qurtlar süfrəsindəki Osmanlı” adlı kitabından istinad edirik: “Sultanın erməni məsələsi haqqında əcnəbiləri maariflәndirməyə yönəlmiş fəaliyyətlərindən biri də Amerika səfirini qəbul edərək ona erməni məsələsinin danışması idi. Amerikalı səfir Terel daha sonra II Əbdülhəmid ilə bu görüşü 1897-ci ilin noyabr ayında “Century Magazine” qəzetində dərc edir. Məqalədə deyilir: “1897-ci il martın 19-da salamlıq mərasimi izləmək üçün Yıldız Sarayına getdim. Mərasimdən sonra iki saata yaxın padşahın yanında oldum. Sultan erməni millətinin Osmanlı İmperiyasında onlara edilən yaxşı rəftar haqqında çox şey söylədi. Bu söylədiklərinin Amerika ictimaiyyətinin də bilməsini istədiklərini bildirdi. Görüşümüz zamanı Sultan Əbdülhəmid İngilis millət vəkili ser Simith Bartenin ermənin qiyamı zamanı etdiyi hərəkətlər haqqında doğru bir ifadədən istifadə etməsindən çox məmnun olduğunu bildirdi. Sonra “Ümidvaram Amerika ictimaiyyətinə həqiqəti söyləyəcəksən” dedi və ermənilərlə bağlı bəzi məlumatlar verdi”.

Görüş zamanı II Əbdülhəmid ABŞ səfirinə ermənilər haqqında bunları danışdı: “Anadolunun fəthi zamanı monqollar və iranlıların hücumlarına məruz qalan ermənilər toplu şəkildə Osmanlı ölkəsinə köç etdilər və Osmanlı sultanlarının himayəsinə girdilər. Ermənilər Osmanlı sultanları tərəfindən mərhəmətlə qarşılandı və lazımi tolerantlıq göstərildi. Həyatlarını və mallarını qorumaq üçün hər şey edildi. Osmanlı sultanları yürüş edərkən və fəthdə olduqları zaman ticarət xristianlar, xüsusən də ermənilər üçün qaldı. Müsəlmanlar Allahı yeganə yaradıcı olaraq tanıyan heç bir dinə müdaxilə etmədikləri üçün xristianların da dinlərinə qarışmadılar. Beləliklə, ermənilər mal, əmlak və sərvət toplamaq imkanı əldə etdilər. 400 ildir Osmanlı rəhbərliyindən məmnun bir şəkildə yaşayırlar.

Osmanlı ölkəsində sərraflıq və iltizam həmişə ermənilər tərəfindən həyata keçirilir. Bu dövrdə ermənilər öz dinlərini qoruyub saxlaya bildilər, əsrlər boyu qədim kilsə və monastırlarda sərbəst şəkildə dini ayinləri yerinə yetirə bildilər və lazım gəldikdə yeni kilsələr açdılar. Hökumətlər həmişə erməni patriarxlarının bütün şikayətlərini dinlədilər və məzhəbləri daima qorundu”.

### Türkləri qatil kimi göstərməyə çalışırlar

Görüş zamanı ABŞ səfiri II Əbdülhəmidə bu cavabı verdi: “Ermənilərin üsyan etməklə türkləri qisas almağa sövq edib xristian aləminin mərhəmət və şəfqətini üzərlərində toplamağa, beləliklə türkləri mərhəmətsiz, qəddar qatillər olaraq göstərməyə çalışdıqlarına dair ən böyük missionerimiz tərəfindən göndərilən xəbərlər Amerika hökuməti tərəfindən İndependent qəzetinin Yanvar 1893 tarixli nüsxəsində yayınladılıb”. Ayrıca bunu da əlavə etdim: “Hökumətim Şərq məsələsinə qarışmaq istəmir, baxmayaraq Anadoluda edilən hücumları təkcə müsəlmanlar etmir, həm də xristianların bu cür cinayətlərə məşğul olduqlarını söyləyirlər. Ermənilərin qırğınının sizin zat-aliləriniz tərəfindən sifariş olunduğu barədə heç bir fikir bildirmədim. Ancaq qarşılıqlı savaşın təkrar olarsa, Osmanlı Dövlətinin də zərər görəcəyinə inanıram. Amerika və İngilis yazıçıları müsəlmanların dözümlülüyünü tərifləyirlər. Keçmişdə də Yerusəlimdə 72 min insan, kişi-qadın və uşaq təslim olmaqlarına baxmayaraq Duke Godefroy tərəfindən vəhşicəsinə qılıncdan keçirildi. Daha sonra şəhəri geri alan Səlahəddin Eyyubi əleyhdarlarına qarşı çox humanist idi və əsgərlərə fidyə verməklə özlərini xilas etmək imtiyazını verdi. Dəməşqdə sizin icazənizlə o böyük hökümdarın məqbərəsinə girdiyimdə, onun göstərmiş olduğu şəfqət və mərhəmət xatirimə gəldi. Onun xaçlıların zülmlərinə qarşı göstərdiyi insani rəftara hörmətimdən papağımı çıxardım”.

*Aysel Məmmədova*

# Abituriyentlər qəbul imtahanlarına necə hazırlaşsınlar?

***“Ümumiyyətlə imtahan hər zaman gərginliklə müşahidə olunan prosesdir. Çünki sizə kimsə qiymətləndirir. Hazırki məqamda bu gərginliyin üzərinə karantin rejimi, eləcə də imtahanlarla bağlı qeyri-müəyyənliyin əlavə edilməsi abituriyentlərin daha da gərginləşməsinə səbəb olur”. Bu fikirləri SİA-ya Dövlət İmtahan Mərkəzinin sektor müdiri Pərviz Kazımov deyib.***



Onun sözlərinə görə, karantin rejimində abituriyentlər üçün stressə qarşı ən yaxşı müalicə öz işləri ilə məşğul olmaqdır: “Stress yaranan vəziyyət qarşısında bizim zəifliyimizdir. İmtahan qarşısında abituriyentlər nə qədər az hazırlıqlıdırsa, o zaman onların taleyi özlərindən deyil, təsadüflərdən asılı olacaq. Hazırlıqlı olan şəxslər güclü olduqları üçün onlar da stress olmur”.

P. Kazımov qeyd edib ki, karantin rejimində ali məktəbə hazırlaşanlar oxumaqlarına davam etməlidirlər: “Bütün qeyri müəyyənliyə baxmayaraq müxtəlif üsullardan istifadə etməklə hazırlıq prosesinə məsuliyyətli yanaşmaq lazımdır. Elə insanlar var ki onlar vizual hazırlıq prosesində daha fəaldırlar. Ona görə də abituriyentlər mövcud vəziyyətdə öz stillərini tapmalı, hazırlıqlarını ona uyğun şəkildə aparmalıdırlar. İndiki dövrdə oxunanları yazmaq, sxem, diskussiya şəklində tətbiq etmək müsbət nəticələr verə bilər. Burada valideyn faktoru da çox önəmlidir. Bəzən uşaqlar da olan stress özlərinin deyil, valideynin stressidir. Bu da valideynlərin eqo mərkəzi ilə bağlıdır. Çünki valideynlər bir çox hallarda uşaqları ali məktəbə imtahan verərkən özlərini ali məktəbə daxil olan digər valideynlərlə müqayisə etməyə çalışırlar. Rəqabətdə kilitlənmək düşüncə qabiliyyətində problemlərə səbəb olur”.

Dövlət İmtahan Mərkəzi tərəfindən fərdi inkişafa dəstək layihəsinin həyata keçirildiyini deyən qurum mütəxəssisi söyləyib ki, video dərs şəklində həyata keçirilən layihə “facebook” bloku və “youtube” kanalına yerləşdirilir. P. Kazımovun fkrincə, uşaqların dərsə hazırlığı ilə yanaşı, onların psixologiyası ilə də ciddi məşğul olmaq mütləqdir: “Məktəb psixoloqları var. Amma uşaqların özləri də bu istiqamətdə fəal olmalıdırlar. Yəni onlar fərdi hazırlıqda aktiv mövqedə durmalı, kiminsə öyrətməsini gözləməməlidirlər”.

# Neftin dünya bazarındakı qiyməti bu iki amildən asılı olacaq

***“Məntiq onu deyir ki, bu şəkildə bazarda neftin qiymətinin artımı müşahidə olunmalıdır, lakin, məsələnin ikinci bir tərəfi daha var”. Bu sözləri SİA-ya açıqlamasında Neft Araşdırmaları Mərkəzinin rəhbəri, neft məsələləri üzrə ekspert İlham Şaban postkarantin dövründə neftin dünya bazarındakı qiymətinin hansı səviyyədə olacağından danışarkən deyib.***



Onun sözlərinə görə, pandemiya ilə bağlı yaranmış karantin rejiminin yekunlaşması insanların artıq hərəkət edə biləcəyini bildirir, yəni, avtomobillərdən, daxili aviasiyadan istifadə ediləcək, ölkələrarası nəqliyyat işə düşəcək və ikinci bir məsələ isə sanəye obyektlərinin, ictimai iaşə obyektlərinin fəaliyyətə başlaması olacaq: “Təbii ki, bütün bu proseslər enerjinin sərfiyyatını artıracaq. Enerjiyə olan tələbat istənilən halda artacaq. Bu da o deməkdir ki, neftin qiyməti artmalıdır. İkinci bir məsələ isə may ayıbda artıq “OPEK+” çərçivəsində neft hasilatının azaldılması prosesi baş verəcək. Bir tərəfdən insanların karantin rejimindən yavaş-yavaş çıxması neftə tələbatı artıracaq, digər bir tərəfdən də bazara daha az həcimdə neftin verilməsi bu prosesə təsir edəcək. Məntiq onu deyir ki, bu şəkildə bazarda neftin qiymətinin artımı müşahidə olunmalıdır”.

Ekspert məsələni bir başqa aspektdən də dəyərləndirib və vurğulayıb ki, bu da neftin dünya bazarındakı qiymətinə əsir edəcək: “Martın sonlarında və bütün aprel ərzində istər qurudakı ehtiyat anbarlarına, istərsə də dənizdəki tankerlərinə ölkələr və şirkətlər tərəfindən yığım və möhtəkirlik məqsədilə böyük həcmlərdə neft cəlb edilib. Həmin neftdən istifadə də edilə bilər, həmin neft möhtəkirlik məqsədilə bazara da çıxardıla da bilər. Bunların neft qiymətlərinə necə təsir edəcəyini proqnazlaşdırmaq çətindir. Çünki, qeyd olunur ki, aprel ayında gündə 20 milyon barel yığım məqsədi üçün neft ayrılıb. Gün ərzində sonradan 3 milyon, 10 milyon və ya 15 milyon barel satılacaq və yaxud öz ehtiyacları üçün istifadə ediləcək. Ona görə də neftin qiymətinin məhz, may ayında necə olacağı həmin gün bazardakı vəziyyətdən asılı olacaq”.

***Nigar Məmmədova***

# “Virusun yayılması dövlət tərəfindən uğurla məhdudlaşdırılmaqdadır”



Hesab edirəm ki, karantin rejiminin yüngülləşməsinin və ya sərtləşməsinin vəziyyətə uyğunlaşdırılması olduqca vacib və doğru qərardır. Nəyə görə? Məhz Azərbaycan dövlətinin koronovirusun yayılmasını nəzarət altına almasını şərtləndirən başlıca məqam ondan ibarət oldu ki, çevik, düzgün və situativ qərarlar verildi. Situativ qərarlar dedikdə isə yəni vəziyyətə uyğun olaraq qərarlar verildi. Bu baxımdan ölkədə müsbət dinamika müşahidə olunmağa başlandı. Təbii ki, epidemoloji vəziyyətin monitorinqinə uyğun olaraq qərarlar verilir”. Bunu SİA-ya millət vəkili Elşad Mirbəşiroğlu deyib.

Deputatın sözlərinə görə, bu gün dövlətin strategiyasının ana xəttini məhz bu təşkil edir: “Bütün göstəricilər ona dəlalət edir ki, dövlətin həyata keçirdiyi tədbirlər olduqca effektiv tədbirlərdir. Təbii ki, müşahidə olunan dinamikaya uyğun olaraq atılacaq addımlar da bütövlükdə vəziyyətin tam stabilləşməsinə gətirib çıxaracaqdır. Bu gün Azərbaycanda vəziyyət onu qeyd etməyə əsas verir ki, virusun yayılması bütövlükdə dövlət tərəfindən uğurla məhdudlaşdırılmaqdadır. Tendensiya tamamilə dəyişdi. Sağalanların sayı yoluxanların sayı üzərində ciddi dominatlıq təşkil etməkdədir. Hesab edirəm ki, bundan sonra da vəziyyətə uyğun olaraq atılacaq addımlar sona qədər nəzarətin saxlanılmasına imkan verəcəkdir. Bir sözlə, onu qeyd etmək istəyirəm ki, gələcəkdə də karantin rejiminin yumşaldılması və ya sərtləşdirilməsi mövcud vəziyyətə uyğun olaraq ediləcək. Bu da çox məntiqli və vacib qərardır”.

# Aprelin sonuncu günündə 25 dərəcə isti olacaq

***Ölkə ərazisində aprelin 30-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər saatlarında zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 10-13º, gündüz 16-19º isti, Bakıda gecə 10-12º, gündüz 17-19º isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.***



Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, aprelin 30-da və mayın 1-də Bakıda və Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 20-25° isti, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 20-25° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10°, gündüz 15-20° isti, dağlarda gecə 0-5°, gündüz 10-15° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 20-25° isti olacağı gözlənilir. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 16-21° isti, dağlarda gecə 4-7°, gündüz 9-14° isti olacağı ehtimalı var.

# Rəsul Quliyev AXCP və Müsavatı yenidən hədəfə aldı: "Mənasızlar"

*Eks-spiker: "Reytinqləri sıfıra çatıb"*



***"Klassik müxalifətin (AXCP və Müsavat) 27 illik fəaliyyəti bu partiyaları və onların liderlərini iflasa uğradıb". SİA xəbər verir ki, bu barədə eks-spiker, hazırda ABŞ-da yaşayan Rəsul Quliyev aları çəkilən radikal müxalifət partiyalarının uğursuzluqlarını və ictimai rəydə heç bir üstünlüyə malik olmamalarını şərh edərkən yazıb.***

Onun sözlərinə görə, bu komandaların Azərbaycanın 18-65 yaşlı vətəndaşları arasında dəstəyi maksimum 1 faiz ola bilər. SİTAT: "Yəni praktiki sıfırdır. Həmin şəxslərin 20 ildir özlərinin monoton tənqidləri, korrupsiya və rüşvəti dərindən analiz etmədən şişirdilmiş yalançı rəqəmlərlə xalqa təsir etmək cəhdləri onlardan mütəmadi müsahibə götürənlərin reytinqlərini sıfıra çatdırıb. 100 min baxış və intervyunun təsiri sıfıra bərabər olursa, bunun səbəbini intervyunun keyfiyyətində yox, başqa səbəblərdə axtarmaq lazımdır".

R.Quliyev qeyd edib ki, bu insanlar (cəbhəçilərin və müsavatçıların "liderləri") mənasız, həmişə eyni çeynənmiş və qeyri-obyektiv intervyuları ilə özlərinin qəbirlərini qazıblar. "Bu gün özlərini dəfn etmiş 1992-1993-cü illərin qalıqlarına süni nəfəs vermək kimlərə və niyə lazımdır?", deyə qeyd edən eks-spiker onların tənqid olunmalarının belə, reklam olduğunu bildirib.

***Rövşən RƏSULOV***

# Cəmil Həsənlinin "SMS hoqqabazlığı"

*Əlisahib Hüseynov: "Onun ənənəvi məqsədi Azərbaycanı dünya ictimaiyyətinə mənfi yöndən tanıtmaqdır"*

***Son aylar satqınlar yuvası olan "Milli Şura" adlı ölü qurumun rəhbəri Cəmil Həsənlinin karantin qaydalarını "SMS"-lə icazənin şərtlərini pozan şəxslərə polis orqanlarının cərimə təyin etməsinə qarşı çıxaraq, bu cərimələri inzibatı qaydada ödənilməsi hallarını qanunsuz hesab edərək, "kəntoş" düşüncələrlə "varlığını" nümayiş etdirməkdədir.***



Demokratik Azərbaycan Dünyası Partiyasının sədri Əlisahib Hüseynov sözü gedən məsələyə münasibət bildirərək, "Milli Şura" sədrinin vətəndaşlara tövsiyyə və çağırışlarının bir-birinə ziddiyyət təşkil etməsi onun hüquqi nihilizmini, məntiqsizliyini təsdiqlədiyini deyib: "Cəmil Həsənli Facebook hesabındakı paylaşımında əvvəlcə vətəndaşlara bildirir ki, -"bütün imkanlar daxilində karantin qaydalarına əməl etmək vacibdir". Sonrakı fikirlərindən birində isə deyir ki, - "cərimələri ödəməyə tələsməyin". Baxın, bir-biri ilə daban-dabana ziddiyət təşkil edən bu iki fikrin ikisini də eyni adam səsləndirir və bununla da vətəndaşları həm də qanunlara tabe olmamağa, anarxiyaya sövq etmiş olur.

Bu "peşəkar" siyasətçi sırf hüquqi məsələlərə dair status paylaşır, amma C.Həsənli hüquqi məntiqdən tamamilə uzaqdır. Onun bu fikirlərini oxuyan hər kəs başa düşür ki, Cəmil "professor" yox, kəntoşdur, qanunlardan xəbərsiz savadsızdır. Xəbəri olsaydı bilərdi ki, karantin günlərində tətbiq edilən cərimələr instututunun söykəndiyi konkret normativ huquqi aktlar var və bu normativ aktlar kimliyindən asılı olmayaraq qanunu pozan bütün şəxslər üçün hüquqi məsuliyyət yaradır. Bu mənada, Cəmil Həsənli və onun düşərgəsindən olanların "inzibati cərimələr polis tərəfindən tətbiq edilə bilməz və bu cərimələri yalnız məhkəmələr təyin edə bilər" fikiri tamamilə əsassızdır, yanlışdır. İnzibati Xətalar Məcəlləsinin tətbiqi ilə bağlı 795 saylı və 1256 saylı Fərmanlar hüquqi baxımdan cərimələrin polis tərəfindən tətbiqinə icazə verir. Odur ki, "siyasi təşkilat" rəhbərinin hüquqi məsələlərə bu cür bəsit tərzdə yanaşması yolverilməzdir".

Ə.Hüseynov qeyd edib ki, "Milli Şura" rəhbərinin "SMS-lə icazə sistemini ələ salaraq "SMS hoqqabazlığı" kimi səviyyəsiz bir ifadə işlətməsi də necə bərbad düşüncəyə malik olmasını açıq-aydın göstərir: "Onun "SMS hoqqabazlığı" adlandırdığı icazə sistemi pandemiya ilə mübarizə dövründə təkcə

Azərbaycanda deyil, əksər ölkələrdə, o cümlədən qonşu Gürcüstanda da tətbiq edilib. Həmçinin, Həsənlinin özünün də tez-tez "siyasi turist" kimi getdiyi, gəzdiyi xarici ölkələrin də bir çoxunda SMS-lə icazə rejiminin tətbiq edilməsinin şahidi olduq. Onda bu adamın xəstə məntiqindən belə çıxır ki, bu ölkələrin hamısı onun iddia etdiyi kimi hoqqabazlıqla məşğuldur? Bu dərəcədə qərəzli olmaq bir "siyasi təşkilat" rəhbəri və bir "professor" üçün ayıbdır. Məqsəd aydındır: Azərbaycanda demokratik mühitə zərbə vurmaq, xaos yaratmaq. Bunlar bu dərəcədə bu xalqa qənim kəsiliblər. İndi daxildəki bu düşmənlərin növbəti dəfə fürsəti olmayacaq. Çünki artıq güclü və inkişaf etmiş Azərbaycan dövləti, öz Prezidenti ətrafında böyük inamla birləşən xalq var. Artıq əksəriyyət və həqiqi demokratik prinsipləri meyar seçən müxalifət də bu qrupların xalq düşməni olduğunu aydın görür. Və dünyadakı karantin rejimindən istifadə edib Azərbaycana qarşı daxildəki bu qruplardan istifadə edərək məkrli planlar həyata keçirmək istəsələr də məqsədlərinə çatmayacaqlar. Çünki nə Azərbaycan 30 il əvvəlki deyil, güclü dövlətdir, nə də xalq əvvəlki deyil. Və məkirli niyyətləri elə niyyət olaraq qalacaq".

***Rəfiqə HÜSEYNOVA***

# Restoran və kafelər karantindən sonra necə işləyəcək?



İctimai iaşə müəssisələrində koronavirusa yoluxma hallarının və ya virusun yayılmasının qarşısının alınması məqsədilə işçi heyətin virus və ondan qorunma yolları barədə məlumatlandırılması zəruridir. SİA Qida Təhlükəsizliyi Agentliyinə istinadla xəbər verir ki, ictimai iaşə müəssisələri sanitar-gigiyenik qaydalara əsasən, müəssisələrdə sanitar məişət otaqlarının (sanitar qovşaq, soyunub geyinmə otağı və s.) işlək və təmiz vəziyyətdə saxlamalı, müəssisəni axar isti və soyuq su təchizatının təmin etməli, müəssisənin təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə daimi olaraq təmin etməlidirlər.

Bununla yanaşı, ictimai iaşə müəssisələr birdəfəlik istifadə üçün salfetlərlə təmin edilməli və ya hava əlqurudanlarını işlək vəziyyətdə saxlamalı, yetərli sayda tibbi maskalar və əlcəklərlə təmin edilməli, istifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbaların qoyulması və bu tullantıların müvafiq qaydada məhv edilməsi, işçi heyətinin qanunvericilikdə göstərilən dövrilikdə, şübhəli hallarda həmin müddətlərdən kənar plandankənar icbari tibbi müayinədən keçməsinin təmin edilməsi, mətbəxdə, heyət otaqlarında, sanitar qovşaqlarda və xidmət zallarında mütəmadi dezinfeksiya işlərinin aparılmasının təmin edilməsi kimi tədbirlər həyata keçirilməlidir.

İctimai iaşə müəssisələrində qida ilə təmas edən səthlərin, avadanlıqların təmizlənilməsi və dezinfeksiyası aşağıdakı qaydada həyata keçirilməlidir:

Təmizləmə zamanı (Təmizləmə - sintetik yuyucu vasitələrin köməyi ilə səthlərdən və avadanlıqlardan mikrob və s. xəstəlik törədicilərinin kənarlaşdırılması prosesi) görüləcək işlər bunlardır:

**1.** Əvvəlcə səthləri sintetik yuyucu vasitələr və ılıq su ilə yuyun,

**2.** Təmiz və ya içməli su ilə durulayın,

**3.** Təmiz dəsmalla qurulayın.

(Təmiz su dedikdə istehlak üçün yararlı olan su nəzərdə tutulur).

İctimai iaşə müəssisələrində dezinfeksiya edilməsi vacib olan sahə və səthlərə daxildir:

- İnzibati binanın ərazisi;
- Binanın daxilində olan bölmələr;
- Mətbəx və emal sahələri
- Yemək qəbulu salonu
- Sanitar məişət otaqları (sanitar qovşaq, duş, soyunub-geyinmə)
- Anbarlar

## Ermənistanda daha 65 nəfər koronavirusa yoluxdu

Ermənistanda koronavirusa yoluxanların sayı 1 932 nəfərə çatıb. SİA-nın erməni KİV-lərinə istinadən məlumatına görə, son sutka ərzində 65 nəfərdə infeksiyaya yoluxma faktı aşkarlanıb. Bu günədək Ermənistanda 30 nəfər koronavirusun qurbanı olub, 1000 nəfərin müalicəsi davam edir. Qeyd edək ki, ölkədə mayın 14-dək fövqəladə vəziyyət elan olunub.

## Balakəndə narkotacir saxlanıldı



Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat tədbiri keçirilib. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan SİA-ya verilən məlumata görə, keçirilən əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Balakən şəhər sakini 22 yaşlı İslam Ələkbərov saxlanılıb.

Şəxsi axtarış zamanı ondan sellofan torbada ümumi çəkisi 1 kiloqram 680 qram narkotik vasitə olan qurudulmuş marixuana aşkar edilərək götürülüb. Aparılan araşdırmalarla İ.Ələkbərova narkotik vasitəni satan şəxsin rayonun Mahamalar kənd sakini, əvvəllər də Cinayət Məcəlləsinin ayrı-ayrı maddələri ilə dəfələrlə məhkum olunmuş 50 yaşlı Elşən Adalov olduğu müəyyən edilib.

O da şübhəli şəxs qismində saxlanılıb və idarə etdiyi "VAZ-21011" markalı avtomobilə baxış keçirilən zaman 14,22 qram qurudulmuş marixuana aşkar olunub. Faktla bağlı Balakən Rayon Polis Şöbəsində saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

# Əli Kərimli yenə də uğursuz bəhanələr gətirir

### AXCP sədri ümummilli məsələlərdə belə, dialoqdan qaçıb

Son vaxtlar siyasi-ictimai rəydə iqtidar-müxalifət dialoqu barədə mövzular yenidən aktuallaşıb. Maraqlı məqamlardan biri də budur ki, vaxtilə destruktiv yöndə fəaliyyətə üstünlük verən bir sıra müxalifət partiyaları artıq həmin fəaliyyətdən imtina edərək, baxışlarını konstruktivliyə tərəf istiqamətləndirirlər. Düzdür, müxalifətçilik və müəyyən məsələlərdə siyasi fərqlilik cəhətləri bu gün də qalmaqdadır, amma bütövlükdə müxtəlif məsələlərdə ortaq məxrəcə gəlməyin mümkünlüyü görünməkdədir. Daha dəqiq desək, ümummilli məsələlər ətrafında aparılan müzakirələr ölkənin siyasi arenasının canlanmasına səbəb olmaqdadır.

### İqtidar yalnız xalqın maraqlarından çıxış edir və dövlətçiliyin inkişafını da həmin istiqamətdə qurur

Lakin hər dəfə olduğu kimi, özünü müxalifətin düşərgəsinin "anası" kimi ictimaiyyətə sırımağa çalışan AXCP sədri Əli Kərimli yenə də öz köhnəlmiş ənənəsindən əl çəkməyərək, hər vəchlə konstruktivlik fəaliyyətindən qaçır, üstəlik bunu hakimiyyətin üzərinə şər atmaqla yıxmağa çalışır.

Əslində, hakimiyyət dəfələrlə bəyan edib ki, onunla diktə dilində danışmaq əbəsdir. Çünki müstəqil və qətiyyətli siyasi fəaliyyət reallığı mövcuddur. Daha doğrusu, bir sıra xarici təşkilat və qurumlar Azərbaycan iqtidarına diktə dili ilə danışmağa dəfələrlə cəhdlər etsə də, lazımi cavabını alıb və sübut olunub ki, iqtidar yalnız xalqın maraqlarından çıxış edir və dövlətçiliyin inkişafını da həmin istiqamətdə qurur.

### Əgər AXCP, ya da onun timsalında fəaliyyət göstərən "Milli Şura" və s. cırtdan qurumlar "ayaqda qalırlarsa" bu alınan sifarişlər və götürülən öhdəliklər sayəsindədir

Belə olan halda heç bir ciddi dəstəyi, ictimai resursu olmayan AXCP-nin diaoq mühitinə kölgə salmaq cəhdləri anlaşılandır. Əgər o dialoqa gedərsə, bu gün xarici dairələrdən maliyyələşməsi kəsiləcək, müxtəlif saxta QHT-lər adından əldə etdiyi qrantların ödənilməsinə son qoyulacaq. Yəni fakt budur ki, əgər AXCP, ya da onun timsalında fəaliyyət göstərən "Milli Şura" və s. cırtdan qurumlar "ayaqda qalırlarsa" bu alınan sifarişlər və götürülən öhdəliklər sayəsindədir. Məhz bu baxımdan, Ə.Kərimli hakimiyyət-müxalifət müzakirələrindən sözün əsl mənasında qaçır.

### AXCP sədri konstruktivliyi rədd edir və...

Baxın, bu adam iddia edir ki, guya həmişə açıq və predmetli dialoqun tə-



rəfdarı olublar, amma bunun "imitasiya" olduğu qənaətinə gəliblər (?!).

Maraqlıdır, Ə.Kərimli burada "dialoq imitasiyası" deyərkən nəyi düşünür? Onun iddiası çox gülüncdür. Belə ki, AXCP sədri konstruktivliyi rədd etdiyini açıq-aydın etiraf edir. Yəni o dağıdıcılığın, radikalçılığın, qaragüruhçuluğun, ümumiyyətlə, hay-küyçü müxalifətçiliyin tərəfdarı olduğunu sərgiləyir. Ona görə də, xalqın, dövlətin maraqlarına xidmət edən siyasi müzakirələri "alqı-satqı", "bəzi müxalifətçilərin konstruktivləşməsi", "hökumətin yanına keçməsi" kimi görür, ya da dağıdıcılıq prinsipindən ayrılmamaq üçün bu cür imitasiyalara yol verir. Halbuki, bu adam hələ də anlamır, ya da anlamaq istəmir ki, iqtidarla müzakirən aparılması, dialoqa gedilməsi heç də iqtidara işləmək mənasını daşımır, əksinə, müxalifət partiyalarının fəaliyyətlərinə siyasi stimul verir, onların gələcək siyasi maraqlarının təminatı üçün önəmli rol oynanır.

Ümumiyyətlə, siyasi konsolodasiya deyilən vasitə yalnız və yalnız dövlətçilik maraqlarına xidmət edir. AXCP sədri Ə.Kərimli isə bundan göründüyü kimi, müxtəlif dəyərsiz iddialarla imtina edir. Bununla da dövlətçiliyin, xalqçılığın yanında olmadığını, xarici maraqlara xidmət etdiyini isbatlamış olur.

### Məgər seçki islahatları bağırarkən, Ə.Kərimli bunu istəmirdimi?

Onun daha bir gülünc iddiası seçki islahatları ətrafındakı var-gəlləridir. Belə ki, dialoqa yalnız özəl tələbləri (?!) ilə gedə biləcəyini öz təbirincə "diktə" etməyə səy göstərən Ə.Kərimli "dialoqa hazırıq, amma biz orada seçki islahatını danışacağıq", deməklə guya iqtidara "ana müxalifətçilik" təsiri göstərdiyini uğursuzluqla tərənnüm edir. Halbuki, ölkədə keçirilən son seçkilərdən sonra bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, ayrı-ayrı siyasilər nəticələri yüksək qiymətləndirdilər. O cümlədən, bu gün parlamentdə kifayət qədər müxalifətçi partiya təmsilçiləri fəaliyyət göstərirlər və ən maraqlısı da budur ki, vaxtilə sosial şəbəkələrdə, aksiyalarda "İlqar Məmmədova azadlıq" şüarını səsləndirən Ə.Kərimli indi həmin partiyaya qarşı "Səlib yürüşü" təşkil edib, söyüş, təhqir kampaniyası başladıb. Sual olunur ki, əgər AXCP sədri REAL-ı ciddi müxalifət partiyası hesab edirdisə, bu partiyanın sədrinin həbsini pisləyirdisə, günahları da hakimiyyətin üzərinə atırdısa, indi nə baş verdi? Nə oldu ki, REAL təmsilçisi Erkin Qədirli demokratik yolla Milli Məclisin deputatı seçidi və bu məsələ Ə.Kərimlini qəzəbləndirdi? Məgər seçki islahatları bağırarkən, Ə.Kərimli bunu istəmirdimi? Göründüyü kimi, yenə də qeyri-ciddilik və böhtan! Artıq məlumdur ki, REAL partiyası qaragüruhçuluq, radikalçılıq metodlarından imtina edəərək, sivil siyasi fəaliyyət göstərməyi daha üstün tutur və bu qərarı onlara hakimiyyət diktə etməyib, bu qərar elə partiya rəhbərliyinin özləri tərəfindən verilib. Nəticədə AXCP-nin xarici maliyyə donorları növbəti müxalifət partiyasını - REAL-ı əldən verdiklərinə görə, indi də Ə.Kərilmini və ətrafını bu partiyaya qarşı hücum etdirir, əlbəttə ki pul-para müqabilində...

### AXCP sədri özünü xalqa və dövlətə işğalçı Ermənistan rəhbərliyi qədər düşmən görür və bunu etiraf edir!

Cəbhəçi sədrin növbəti gülünc və iztehza yaradan iddiası hakimiyyətin işğalçı Ermənistanla danışıqlar aparması məsələdir. Görün bu adam nə qədər siyasi səbatsız və düşüncəsiz kəsdir ki, Azərbaycan hökumətinin Ermənistanla dialoqa getdiyi halda nəyə görə AXCP ilə dialoqa getməməsini soruşur (?!). Məsələ ondadır ki, bu gün işğala məruz qalmış torpaqlarımızın əsas baiskarları, əsas təməlçiləri bilavasitə AXC iqtidarı olub. Həmin iqtidar ki, onun yüksək siyasi eşalonunda Ə.Kərimli də təmsil olunub. İndi mövcud iqtidar torpaqların qeyd-şərtsiz azad olunması üçün Ermənistanla danışıqlar masasında oturur və əks halda ərazilərimizi müharibə yolu ilə azad edəcəyini açıq şəkildə bəyan edir. O cümlədən, hücum diplomatiyası da öz qüvvəsində qalmaqdadır. Bəs Ə.Kərimli niyə yuxarıda qeyd edilən iddiasını irəli sürür? Məgər o özünü Azərbaycan dövlətinə və xalqına düşmənmi bilir? Göründüyü kimi bu belədir, o həqiqətən də özünü bu dövlətə, bu xalqa düşmən elan edib!

Beləliklə, bu cür faktları, sübutları "n" qədər gətirmək olar. Ancaq kimə və nəyə? Bir halda ki, özünü "ana müxalifət" elan edən Ə.Kərimli ən elementar siyasi bilgiləri qavramırsa, onunla həqiqətən də müzakirələr aparmağa dəyməz...

***Rövşən RƏSULOV***

## Şübhəli bilinən 50 nəfər saxlanılıb



Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, aprelin 28-də törədilən 27 cinayətin üstü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 15 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 21 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 9 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 18, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 50 nəfər saxlanılıb.



**Təhmasib Novruzov**

## Çalxalanan müxaliflərin növbəti vertualı savaşı

Hər zaman demişəm, yazmışam, deməkdən və yazmaqdan da usanmıram ki, bizim siyasi müxalifətimiz şəxsi maraqlar üzərində qurulub və onun da siyasət aləmində keçimli olmadığı gün kimi aydındır. Usanmıram ona görə ki, bu özünü siyasi müxalif adlandıranlar yeni-yeni əndrabani oyunlar oynamaqdan usanmırlar və utanmırlar. Belədə mən niyə usanım, ya da utanım? Bu dəfə əsas özəyini AXCP təşkil edən Milli Şura deyilən millilikdən çox uzaq qurum bütün dərd-sərini buraxıb, düşüb REAL-ın üstünə.Zatən bu milli olmayan şura yaranandan bəri, hər zaman real həyatdan, dünyada və cəmiyyətdə baş verən real proseslərdən uzaq olub.Bunu anladıq. Uzaq ol, amma REALla savaşmaq niyə? Sən bir partiyanın hoqqasıynan yaranmış gərəksiz bir qurumsan, o da bir partiyanın özüdür ki, istəyi də indiki iqtidara müxalif olmaqdan və onun eyiblərini tapıb, göstərib, özünün daha yetgin siyasi qurum olduğunu isbatlamaqdan və sonra da xalqa üz tutub "MƏNİ SEÇİN" deməkdən ibarətdir. Siz də həmin yolu gedirsiniz, onlar da. Yeganə fərq ondadır ki, siz bu yolda nəinki ivanlara, seyyidlərə, conlara, hələ haylara da "dayı" deyib ətəyindən tutmağı özünə rəva görənlərdənsiniz, REAL isə bu sarıdan bir balaca özünü və sözünü qoruya biləndir. "Qonaq qonağı sevməz, ev yiyəsi heç birin" deyə bir məşhur deyim var. Onu suyasiləşdirəndə belə alınır: "Müxalifət müxalifəti sevməz, iqtidar da heç birin". Yəni bu iqtidara fərq etməz, müxalifətəm deyib kim bağırır. Fərq onda edər ki, real bir qüvvə olaraq cəmiyyətin inkişafında iqtidara da, müxalifətə də(-təbii ki, xaricdən idarə olunanlar istisnadır)və ümumən cəmiyyətə gərəkli olan töhfələr versin. İndi hüququnun bərpasını xaricdə deyil, öz ölkəsində arayıb, sonda onu tapan realçı İlqar Məmmədov olub düşmən, yaxud iqtidarla separat əlaqə yaradan!

Qarşıdurma getdikcə güclənir və bu qarşıdurmanın da səbəbi, Ali Məhkəmənin Plenumunun REAL sədri İlqar Məmmədov və partiyanın idarə heyətinin üzvü Rəsul Cəfərova bəraət verməsi, mənəvi təzminat təyin etməsidir.Cəbhəçilər və milli şuraçılar açıq şəkildə barələrində qərar çıxarılanları aşağılayır, onları hakimiyyətlə anlaşmada ittiham edirlər. Bunlar olmadan, belə qərarın verilməsinin mümkünsüz olduğunu vurğulayırlar.

Həm də savaş təkcə REAL-Milli Şura arasında getmir. ABŞ-dan internet üzərindən canlı yayımlar təşkil edən Sevinc Osmanqızı ilə REAL-ın sabiq funksioneri, tarixçi alim Altay Göyüşov arasında ciddi gərginliyin yaşanması, bu savaşın miqyasının hələ çox genişlənəcəyindən xəbər verir. S.Osmanqızının işlətdiyi bir cümlə aləmi bir-birinə vurub. ""Qədeşbala" professor Altay Göyüşöv məni bəyənmir, təəccüblənmirəm, amma "fırıldaq" dediyi nədir? Mən onun kimi gah REAl-a girib, gah çıxıb, gah yenə girib, yenə çıxmıram". Və sairə...

Üzü üzlər görmüş o qızın dediklrini burda təkrarlamağa ehtiyac görmürəm. Bunu da ona görə yazdım ki, oxucu bilsin bu savaşa kənardan fitva verənlər kimlərdir. Yəni ilana (Oxu: Cəmil Həsənliyə və Əli Kərimliyə) ağı verən kərtənkələnin (Oxu: Sevinc Osmanqızının) istəyi ortadadı. Nəyin bahasına olursa olsun, müxalifləri bir-birinə vuruşdurmaq! Əks halda onlar birləşsə Osmanqızının qurduğu oyun özünün başında çatlayacaq. Nə isə... Hər kəs özü bilər, mənə nə kim kiminlə savaşdı, kim kiminlə söyüşdü. Mənim bircə istəyim var, o da əvvəllər dəfələrlə yazdığım kimi, bu millətə allah gerçək və ədalətli bir müxalif qüvvə yetirsin.

Amma görünən odur ki, Milli Şura ilə AXCP elə canlı sədd qurmaq istəyirlər ki, inhisara aldıqları bu düşərgəyə heç top-tüfənglə də kimsə yaxın düşə bilməyəcək. Və belə getsə hələ çox eşidəcəyik "biz gəlirik" və "iqtidardakılar saxtalaşdırdı" bağırtılarını. Yenə deyirəm, onların hamısı cəhənnəmə, allahın bu millətə yazığı gəlsin, bu siyasət oyunbazlarınıdan canını qurtarsın. Yoxsa bunlar nə usanan deyil, nə utanan deyil, nə də xəyanətlərinə son qoyası, real siyasətə dönüş eliyəsi deyillər. İndi anladım, niyə köhnələr təzələri belə daşa basırlar. Axı onun adı REAL-dı! Bunların da ən qorxduqları elə reallıqdır də...

Sonda REAL sədrinin bir ifadəsini xatırlatmaöa ehtiyac duyuram. İlqar Məmmədov: "Əli Kərimli kimiləri Afrikada olsaydılar, Mandelaya da satqın deyərdilər".

Belə!

***Sağ qulağının kəsilməsilə tarixə düşən məşhur Andronik bəllidir ki, vətəndaşı olduğu Osmanlı İmperiyasına xəyanət etdiyi üçün Andronikin sağ qulağı kəsilmişdi. Ona görə də, bütün fotolararda Andronikin sola döndüyü yerlər kəsilib çıxarılır. Nəticədə siz hər dəfə Andronikin dondüyü kadrlarda sıçrayışlı montaj görürsünüz...Yəni ermənilər onun qulağının qeyrətini çəkirlər. Bu günlərdə ermənilər İrəvanda "mili qəhrəman" kimi tanıdıqları Andranikin yubileyi ilə bağlı fotosərgisini təşkil ediblər..Burada bir məsələyə diqqət edin: Andranikin soyadı "Ozanyan"dır. Sözün kökü türk sözü olan "Ozan"dırsa, bu fırıldaq erməni özünü necə qədim erməni xalqının nümayəndəsi sayır? Digər soyadlara da fikir verin: Kazar (Xəzər) Mirzoyan. "Xəzər Mirzəyan"ın həm adı, həm də soyadı türk mənşəlidir - Xəzər və Mirzə. Sonra da deyirlər ki, erməni xalqı qədimdir və s. Elə soyadları və adları göstərir ki, ermənilər türklərdən törəmədir...***

Bəs Andranikin dibindən kəsilmiş qulağı necə bitib???Yuxarıda qeyd olunduğu kimi, Andranikin yubileyinə həsr olunmuş sərgidə onun son illərdəki fotoları da sərgilənib (təqdim edirik). Amma bu fotolara baxanda gördüm ki, şəkillərin hamısında onun Osmanlı ordusuna xəyanətinə görə kəsilmiş qulağı yerindədir. Bəs bu necə baş verib? Cavanlıq şəkillərini başa düşdük, amma sonrakı illərin şəkillərində onun qulağı yerinə peyda olub. Tibb elmi 1890-cı illərdə elə inkişaf etməmişdi ki, Andranikə qulaq transplantasiyası həyata keçirələr. Deməli, bu da ermənilərin tarixi faktı saxtalaşdırma və gizlətmə cinayətlərindən biridir.

Bəs Andranikin qulağı necə və niyə kəsilib?Tarixi mənbələri izldikdə məlum olur ki, Andranik Ozanyan 1890-ci illərdə Osmanlı imperiyasına xəyanət etdiyi üçün cəza kimi onun qulağını kəsirlər, bundan sonra ona xalq arasında "tayqulaqlı Andranik" deyiblər. Andranik Türkiyədə fəaliyyət lərin əhalisi kütləvi şəkildə öldürülür, diri-diri yandırılır, qılıncdan keçirilirdi. Andranikin quldurlarının vəhşiliyi barədə erməni tarixçisi A.Lalayan yazır: "Andranikin başçılıq etdiyi daşnak dəstələri, türk kəndlilərinin uşaqların, qadınların və qocaların qətli zamanı "böyük sücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində, sağ adamlar qalmırdı, onlar insan qalıqları ilə dolu, xarabalığa çevrilirdi"Beləcə, tayqulaq Andranik türklərə və azərbaycanlılara qarşı vəhşiliyi ilə tarixdə qalıb. Türklər sağ ikən cəzasını verib, Allah isə o dünyada zülmünü versin. Andranik 25 fevral 1865-ci ildə anadan olub, 31 avqust 1927-ci ildə ölüb. 1890-cı ildə, yəni 25 yaşında qulağı sivrilib. Yəni, dibindən kəsilib. Təqdim edilən fotoda isə onun ən azı 45-50 yaşı var. Bu necə ola bilər ki, 25 yaşında kəsilən qulaq 50 yaşında yerinə gəlib!?

Andranik Ozanyan 1890-cı illərdə Türk ordusuna qarşı döyüşlərdə iştirak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan sonra Andranik Türkiyədən qaçır. Bir müddət Qafqazda olur, sonra isə Avropaya yollanır. 1907-ci ildə Bolqarıstanda, Daşnaksütunun IV qurultayında iştirak edir.r 1912-ci ildə müharibə başlayanda, Qareqin Njde ilə birlikdə ermənilərdən ibarət könüllü dəstə yaradır. Burada erməni silahlı dəstələri yerli türk əhalisinə qarşı kütləvi qırğınlar törədməklə məşğul idi. Bu döyüşlərdə iştrakına görə Andranik Ozanyan Bolqarıstanın ali dövlət təltifi olan, "İgidliyə qörə qızıl xaç" ordeni ilə təltif olunur. Bundan əlavə onu digər mükafatlarla da təltif edirlər, həmçinin Andranik Bolqarıstan vətəndaşlığına qəbul olunur. 1914-cü ilin avqustunda Andranik Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə görüşür və rus ordusuna öz xidmətlərini təklif edir. Rus ordusu Andranikə erməni hərbi dəstələrini formalaşdırmağı tapşırır. Türk ordusuna qarşı hərbi əməliyyatlarda iştrakına görə rus və fransız ordusu-

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Ermənistanın "milli qəhrəmanları" kimlərdir?: Tayqulaq Andranik Ozanyan

göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı ilə də məşğul olur və 1890-cı ildə Türk ordusuna qarşı döyüşlərdə iştirak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan sonra Andranik Türkiyədən qaçır. Bir müddət Qafqazda olur, sonra isə Avropaya yollanır. 1914-cü ildə Andranik rus ordusunun komandanı general Aleksandr Malışayevski ilə görüşür və rus ordusuna öz xidmətlərini təklif edir, yəni satqınçılıq edir. Rus ordusu Andranikə erməni hərbi dəstələrini formalaşdırmağı tapşırır. Türk ordusuna qarşı hərbi əməliyyatlarda iştrakına görə rus və fransız ordusunun komandanlığı tərəfindən bir sıra orden və medallarla təltif edilir. İndiki Ermənistanın Rusiya qarşısında xidmətləri kimi.1917-ci iilin burjua inqilabından sonra Qafqazdakı rus ordusu tədricən dağılmağa başlayır. Yaranmış vəziyyətdən istifadə edən ermənilər, öz silahlı dəstələrini gücləndirir, çar ordusundan qalmış silah və sursatı mənimsəyirlər. Zəngəzurda Andranikin rəhbərlik etdiyi silahlı dəstələr Azərbaycan kəndlərini dağıtmaqla məşğul idi. Bu kənd-lərdə iştirak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırandan sonra Türkiyədən qaçıb. 1914-cü ilin avqustunda Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə qörüşüb və rus ordusuna öz xidmətlərini təklif edib.

Andranik Ozanyan ( 1865 - 31 avqust 1927) - Ermənistan milli qəhrəmanı, Bolqarıstanın milli qəhrəmanı. 1918-ci ildə əsasən Qarabağ və Zəngəzurda azərbaycanlılarınyaşadıqları kəndlələrin dağıdılmasında və əhalisinin qırğınında Andranikin başçılıq etdiyi dəstə böyük rol oynamışdı Osmanlı imperiyasında anadan olub. Bir müddət "Hnçak" partiyasının, sonra isə "Daşnaksütunun" üzvü olub. 1880-ci illərdə Andranik Osmanlı dövlətinə xəyanət etdiyi üçün cəza kimi onun qulağını kəsirlər, bundan sonra ona xalq arasında "birqulaqlı Andranik" deyirlər. Andranik Türkiyədə fəaliyyət göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olur. 1890-cı illərdə Türk ordusuna qarşı döyüşlərdə iştirak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan son-nun komandanlığı tərəfindən bir sıra orden və medallarla təltif edilir. 1916-cı ildə çar ordusunun komandanlığı ilə yaranan problemlərə görə cəbhəni tərk edir. Andranikin Türkiyənin şərqində olduğu bütün müddət ərzində, onun başçılıq etdiyi silahlı erməni dəstələri buradakı türk və kürd əhalisinin kütləvi qətlləri ilə məşğul olurdular. 1917-ci il fevral inqilabından sonra Qafqazdakı rus ordusu tədricən dağılmağa başlayır. Yaranmış vəziyyətdən istifadə edən ermənilər, öz silahlı dəstələrini gücləndirir, çar ordusundan qalmış silah və sursatı mənimsəyirdilər. Bu zaman başsız qalmış Rusiyanın Qafqaz ordusunun komandanlığı Andranikə general-mayor rütbəsi verir, lakin qeyd etmək lazımdır ki, yaranmış vəziyyətdə komandanlığın verdiyi rütbələr daha çox rəmzi əhəmiyyət kəsb edirdi. Andranik 1918-ci ildə Ermənistanla Türkiyə arasında imzalanmış müqaviləni tanımaqdan imtina edir. Bu dəfə Andranik bolşeviklərlə əməkdaşlıq etməyə başlayır, o, 1918-ci ilin iyulunda Stepan Şaumyana teleqram qöndərir, teleqramda Andranik bildirir ki, "Naxçıvan qəzası özünü Sovet Rusiyasının bir hissəsi sayır, və o özü dəstəsi ilə birlikdə bolşeviklərin tabeliyinə keçməyə hazırdır". Lakin iyulun 19-u türk ordusu Naxçıvanı və Culfanı tutur, Andranik Zəngəzura qaçır. Zəngəzurda Andranikin rəhbərlik etdiyi silahlı dəstələr Azərbaycan kəndlərini dağıtmaqla məşğul idilər. Bu kəndlərin əhalisi kütləvi şəkildə öldürülür, diri-diri yandırılır, qılıncdan keçirilirdi.

Andranikin quldurlarının vəhşiliyi barədə erməni tarixçisi A.Lalayan bunları yazır:

"Andranikin başçılıq etdiyi daşnak dəstələri, türk kəndlilərinin uşaqların, qadınların və qocaların qətli zamanı "böyük sücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində, sağ adamlar qalmırdı, onlar insan qalıqları ilə dolu, xarabalığa çevrilirdi". Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirir, meyitlərini isə Araz çayına atır. 1918-ci ilin sonlarında Andranikin dəstələri Qarabağda bir çox azərbaycan kəndlərinə hücum edərək kütləvi qətllər törədir, kəndləri talan edir. Rəsmi məlumatlara görə bu dövrdə 115 azərbaycan kəndi dağıdılmış, 10 mindən artıq əhalisi qətlə yetirilmiş, əmlakları talan edilmişdir. 1919-cu ilin aprelində Andranik Eçmiadzinə gəlir, burada o dəstəsinin böyük hissəsini sərbəst buraxır, bir hissəsini isə özü ilə mühacirətə aparır. Birinci Dünya Müharibəsindən sonra Türkiyə hökuməti Andranikin hərbi cinayətkar kimi beynəlxalq axtarışını elan edir. Andranik muhacirətdə Fransada, sonra isə ABŞ-da yaşayır. ABŞ-da Kaliforniya ştatının Fresno şəhərində vəfat edir. 28 may 2011-ci ildə Rusiyanın Soçi şəhərinin yaxınlığındakı Volkonka qəsəbəsində Andranik Ozonyananın abidəsi açılmalı idi. Tədbirdə Krasnodar diyarından 5-6 minə qədər ermənin gələcəyi gözlənilirdi. Ancaq yerli hakimiyyət orqanları tədbirə etiraz etdilər. Bildirildi ki, ermənilər abidəni sökməlidirlər, yoxsa yerli hakimiyyət onu dağıtmalı olacaqdır/

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

30 aprel

# Ramos: “Koronavirusun bizə köməyi oldu”



***“Koronavirusun bizə köməyi oldu. Ona görə ki, uşaqlarımızla daha çox vaxt keçiririk”. Qol.az-ın “Marca”ya istinadən yaydığı xəbərə görə, bu sözləri “Real”ın kapitanı Serxio Ramos karantin rejimini necə keçirməsi barədə danışarkən deyib.***

“Fikrimcə, indi mən karantinə qədərki vaxtdan daha güclüyəm. Vəziyyətə ciddi yanaşdım. İş və istirahət arasında balansa xüsusi diqqət yetirdim. İndi fiziki formam mövsünün ortasına baxanda daha yaxşıdır. Çünki üç gündən bir oynayanda, bərpa olunmağa lazımi zaman qalmırdı. Karantinin ilk günündən əmin oldum ki, proses uzun çəkəcək. Ona görə də öz proqramım üzrə çalışmağa başladım” - deyə Ramos bildirib.

# Boris Conson ata oldu



***İngiltərənin Baş naziri Boris Conson və nişanlısı Carrie Simondsun övladı dünyaya gəlib. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Baş nazirlikdən verilən açıqlamada Simonds ana və körpənin sağlamlıq vəziyyətlərinin yaxşı olduğunu açıqlayıb. 32 yaşlı Simonds körpəsini paytaxt Londonda bir xəstəxanada dünyaya gətirib. Cütlük fevral ayında körpə gözlədiklərini açıqlayıb.***

55 yaşlı İngiltərə Baş naziri, həftənin əvvəlində Covid-19 müalicəsini tamamlayıb və işinə geri qayıdıb. Conson paytaxtdakı bir xəstəxanada 3 günü reanimasiya şöbəsində olmaqla bir həftə Covid-19 müalicəsi alıb.

# Özünü Səhiyyə Nazirliyinin əməkdaşı kimi təqdim edərək insanlardan pul tələb edən şəxs tutulub

***Nizami rayonunda ayrı-ayrı vətəndaşların evlərinə gedərək özünü guya Səhiyyə Nazirliyinin əməkdaşı kimi təqdim edib həmin şəxslərin yaşadıqları ünvanda dezinfeksiya işləri aparılacağını dəyən və bu məqsədlə onlardan pul tələb edən şəxs saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayon sakinlərindən Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinə daxil olan çoxsaylı şikayətlər əsasında həyata keçirilən əməliyyat zamanı bu yolla insanlardan pul toplayan Cəlilabad rayon sakini



Vasif Urşanov tutulub. O, ifadəsində qeyd edib ki, Nizami rayonunda təxminən 30-dan artıq mənzilə gedərək dezinfeksiya işləri adı altında sakinlərdən pul tələb edib. O, pul vermək istəməyən şəxslərə əks təqdirdə Səhiyyə Nazirliyi tərəfindən 28 manat cərimə olunacaqlarını bildirib. Vasif Urşanovun üzərinə baxış zamanı getdiyi evlərin ünvanlarını qeyd etdiyi kitabça da aşkar olunub.

Araşdırma zamanı Vasif Urşanov barəsində Cəlilabad Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 177.2.3-cü və 234.1-ci maddələri ilə cinayət işinin icraatda olduğu məlum olub. Faktla bağlı 24-cü Polis Şöbəsində araşdırmalar davam etdirilir. Vasif Urşanovun əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə Daxili İşlər Nazirliyinin “102” Zəng Mərkəzinə məlumat verə bilərlər.

# Bakıda soyğunçuluq edən keçmiş məhkum tutulub



Paytaxtda soyğunçuluqla məşğul olan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 16-da paytaxt sakini R.Nuriyevin 50 manat pulunu soyğunçuluq yolu ilə almaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Həziyev Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Özil “Arsenal”dan ayrılır?



“Arsenal”ın futbolçusu Məsut Özilin London klubundakı gələcəyi qeyri-müəyyəndir. Qol.az ESPN-ə istinadən xəbər verir ki, Premyer Liqa təmsilçisi 31 yaşlı yarımmüdafiəçiyə 2021-ci ildə başa çatacaq müqavilənin müddətini uzatmağı hələ təklif etməyib.

Bildirilib ki, türkəsilli alman oyunçu yaşına görə baş məşqçisi Mikel Artetanın uzunmüddətli planlarında yer almaya bilər. Klubun onu satmasının mümkün ola biləcəyi vurğulanıb Ancaq həftəlik 350 min funt sterlinq olan yüksək maaşı Özilə başqa klubların marağını azalda bilər. Qeyd edək ki, Özil bu mövsüm Premyer Liqada 18 matçda 1 qol vurub, 2 qolun ötürməsini verib.

# Cidi Hadid ana olacaq



25 yaşlı dünya şöhrətli model Cici Hadid ana olmağa hazırlaşır. Modelin yaxınları onun 27 yaşlı müğənni Zeyn Malikdən hamilə qaldığını açıqlayıb. Mediada yayılan məlumatlara görə, Hadid artıq hamiləliyinin 20-ci həftəsindədir. Körpənin cinsiyyəti açıqlanmır.

Amerikalı modellə ingilis müğənninin romanı beş il davam etsə də, bu illər ərzində bir neçə dəfə ayrılıb yenidən barışıblar. Cütlük 2018-ci ildə iki dəfə ayrılıb. 2020-ci ilin yanvar ayında yenidən bir araya gəliblər. Qeyd edək ki, model Fələstin əsilli və amerikalı milyonçu Məhəmməd Hadidin qızıdır. Zeyn Malik isə əslən pakistanlıdır./publika.az

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**